# QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 047 (6247) 13 mart 2021-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident İlham Əliyev Daxili Qoşunların yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib

*Bax 2*



## Azərbaycan sivilizasiyalar arasında körpüdür



*Bax 3*

*Dünyada Azərbaycanın Birinci Xanımı kimi tanınan və böyük nüfuza sahib olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban Əliyeva millət və dövlət maraqları baxımından müstəsna...*

## Ədalət Vəliyev: "Dialoqdan boyun qaçıranlar hansısa dairələrin çirkin maraqlarına xidmət edirlər"



"Prezident İlham Əliyevin apardığı siyasi islahatlar nəticəsində ölkədə sağlam iqtidar-müxalifət münasibətləri qurulub, dialoq aparılır". SİA-nın verdiyi məlumata görə...

*Bax 4*

## Qarabağ ermənisi: "Əhvalımız yaxşı deyil, burada hamı depressiyadadır"



Dağlıq Qarabağda yaşayan ermənilər acınacaqlı vəziyyətlə üzləşiblər. Onlar əvvəlki kimi xoşbəxt olmadıqlarını, hər an qorxu içində yaşadıqlarını deyirlər. Azvision.az xəbər verir ki, müharibə vaxtı...

*Bax 5*

## Ekspert: Sənədsiz evlərin rəsmiləşdirilməsi evlərin qiymətlərini bahalaşdıracaq

*Bax 10*



Bir neçə il öncə inventarlaşdırılmasına başlanılan qeydiyyatsız evlərin rəsmiləşdirilməsi fərdi yaşayış evlərinin qiymətinin bahalaşmasına səbəb olacaq...

## Paşinyan Kremlə lazımdır



*Bax 13*

Regionu Ermənistanın İrəvandakı revanşist güclərinin çağırışlarına əsasında Azərbaycana qarşı aqressiyasından qorunması üçün ən yaxşı vasitə Nikol Paşinyanın erməni...

## Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb



Xarici İşlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında baş tutub. Xarici İşlər Nazirliyindən...

*Bax 4*

## Füzulidə ermənilərin atıb qaçdığı silah-sursat tapıldı



*Bax 5*

## Özləri kimi, ağılları da icarəyə götürülən antimillilər



*Bax 14*

## Dünya ŞOKDA: Bu il dünyada 150 mindən çox insan aclıqdan öləcək!



*Bax 16*

## "İldə 70 milyon da versələr, "Barselona"da oynamaram"



*Bax 16*

# Prezident İlham Əliyev Daxili Qoşunların yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib









***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 12-də - Daxili Qoşunların yaranması günündə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakının Sabunçu rayonunda yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə raport verdi.***

Nazir Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, hərbi hissədə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin yaxşılaşdırılması tədbirləri çərçivəsində qərargah və əsgər kazarması, yeməkxana, tibb, qarovul, texniki nəzarət, buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri avadanlıq və inventarla təchiz edilib. Mövcud binalar isə əsaslı təmir olunub. Hərbi hissədə mərkəzləşdirilmiş havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb.

Prezident, Ali Baş Komandan hərbi hissədə yeni inşa edilən qərargah, əsgər yataqxanası, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu. Diqqətə çatdırıldı ki, hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb.

Qeyd edək ki, əsgər və zabitlərin xidmət şəraitinin yaxşılaşdırılması onların döyüş qabiliyyətini artırmaqla bərabər, istənilən vəzifənin icrasına birbaşa təsir göstərən amillərdəndir.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və kütləvi iğtişaşların dağıdılmasında istifadə olunan texnikaya və komendant postlarına baxdı. Bu postlar işğaldan azad olunmuş ərazilərdə xidmət aparmaq üçün hazırlanıb.

Qeyd edək ki, Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Daxili Qoşunların xüsusi təyinatlıları vahid komandanlıq altında Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına, xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların mükafatlandırılmasına xüsusi diqqət yetirir. Azərbaycan Prezidentinin 2021-ci il 12 mart tarixli Sərəncamına əsasən Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının iki hərbi qulluqçu "Vətən uğrunda", üç nəfər "İgidliyə görə", 7 nəfər isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunması bunun əyani göstəricisidir.

Xatırladaq ki, Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri kimi Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirməyə, ictimai asayişin mühafizəsinin, ictimai təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır. Hərbi hissə ilə tanışlıqdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının bütün şəxsi heyətini təbrik etdi.





# Nüfuzlu İtaliya portalı: “Azərbaycan İtaliyanın fundamental tərəfdaşıdır”







***İtaliyanın “İnsideover” portalında jurnalist Emanuel Pietrobonun müəllifliyi ilə Azərbaycan haqqında silsilə məqalələr dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalələrdə İtaliya-Azərbaycan strateji tərəfdaşlığı, Azərbaycanla Vatikan arasında sıx əlaqələr, Azərbaycan-İsrail münasibətləri, Prezident İlham Əliyevin regionda sülhün bərqərar olmasına dair təklif etdiyi “3+3” formatı, Zəngəzur dəhlizi və onun əhəmiyyət barədə danışılır.***




“Azərbaycan İtaliyanın fundamental tərəfdaşıdır” sərlövhəli məqalədə, həmçinin Azərbaycan-İtaliya strateji tərəfdaşlığının əhəmiyyəti, bu xüsusda son illərdə həyata keçirilmiş yüksəksəviyyəli səfərlər və ötən il fevralında Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri, həmin səfər zamanı imzalanmış “Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə”, onun ölkəmizlə əməkdaşlıqda rəsmi Roma üçün yaratdığı böyük imkanlar, Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rolu, ölkələrimiz arasında iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıqdan bəhs olunur.

“Vatikan və Azərbaycan, mədəniyyət və sülh üçün birlikdə” sərlövhəli məqalədə müəllif Azərbaycanla Vatikan arasında uzun illərdən bəri formalaşmış sıx əlaqələr, bu münasibətlərin hazırkı yüksək səviyyəyə çatmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rolu, Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda böyük tarixi əhəmiyyət daşıyan dini abidələrin bərpası, Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin daxil olduğu nümayəndə heyətinin Müqəddəs Taxt-Taca son səfəri zamanı Müqəddəs Komodilya katakombalarının bərpasına dair yeni əməkdaşlıq müqaviləsinin imzalanması barədə məlumat verir və belə təşəbbüslərin Azərbaycan ilə Vatikan arasında əlaqələrin daha möhkəmlənməsinə töhfə verdiyini diqqətə çatdırır.

Müəllifin “İsrail ilə Azərbaycan arasındakı ittifaq” başlıqlı məqaləsində Azərbaycan-İsrail münasibətlərinə nəzər salınır, iki ölkə arasında siyasi, hərbi, iqtisadi və mədəni sahələrdə mövcud olan sıx əməkdaşlıqdan, İsrailin dövlət rəhbərlərinin və dünya yəhudi təşkilatlarının liderlərinin Azərbaycana səfərlərindən bəhs edilir, eləcə də ölkəmizdəki yəhudi icması və Azərbaycanın multikultural ənənələri barədə danışır.

“Azərbaycandan Qafqazda sülhün təmin edilməsi üçün təklif” sərlövhəli məqalədə isə Prezident İlham Əliyevin təklif etdiyi “3+3” formatı barədə geniş məlumat verilir, region dövlətləri arasında sıx inteqrasiyanın təmin olunmasına xidmət edəcək bu platformanın regionda davamlı sülhə gətirib çıxaracağı, bu xüsusda Azərbaycanın liderliyi ilə bağlı məqamlar diqqətə çatdırılır.

Müəllifin Zəngəzur dəhlizinin əhəmiyyətindən bəhs edən “Zəngəzur dəhlizi - Ermənistan ilə Azərbaycan arasında sülh üçün açar” sərlövhəli məqaləsində bu dəhlizin açılmasının 10 noyabr Bəyanatından irəli gəldiyi vurğulanır. Bu yeni bağlantı dəhlizinin əhəmiyyəti, regionda nəqliyyat-kommunikasiya imkanlarının inkişafı, davamlı sülhün və tərəqqinin təmin edilməsində oynaya biləcək rolu barədə məlumat verilir.

# Azərbaycan sivilizasiyalar arasında körpüdür



***Dünyada Azərbaycanın Birinci Xanımı kimi tanınan və böyük nüfuza sahib olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban Əliyeva millət və dövlət maraqları baxımından müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirir. Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxsaylı layihələr müxtəlif sahələri əhatə edir.***

Bu, dünya ölkələri tərəfindən belə maraqla qaşılanır. Belə ki, bu günlərdə “HorraPress” Avropa Azad Mətbuat Mərkəzi Azərbaycan-İberiya-Amerika beyin mərkəzinin (CEPAI) “Azərbaycanın mədəniyyət diplomatiyası və Mehriban Əliyevanın gözəl işləri” sərlövhəli məqaləsində Azərbaycan rəhbərliyinin, xüsusən Birinci vitse-prezident Mehriban Əliyevanın həyata keçirdiyi mədəniyyət diplomatiyasından söz açılıb.

Məqalədə Mehriban Əliyevanın “Instagram” səhifəsində qədim Qarabağ torpağındakı dini abidələrin və məscidlərin bərpası layihəsinin işə salınması barədə paylaşım etməsi diqqətə çəkilib: “Bu günlər biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayırıq. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir... Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir...”

“HorraPress” oxucuların diqqətinə çatdırır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ölkənin xaricdə populyarlaşmasına, habelə sosial siyasətin həyata keçirilməsinə, elmin, təhsilin, mədəniyyətin və idmanın inkişafına mühüm töhfələr verir. Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr milli dəyərlərin qorunub saxlanmasına və möhkəmlənməsinə, humanizm prinsiplərinin təbliğinə yönəlib.

Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan “Azərbaycan - tolerantlığın ünvanı” layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır.

Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Fondun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də “Azərbaycan - tolerantlığın ünvanı” layihəsi çərçivəsində reallığa çevrilib.

Mehriban xanım Əliyevanın müsahibələrinin birində dediyi kimi, dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni zamanda, ümumdünya əhəmiyyətli abidələri bərpa edir. Bu, Fondun həyata keçirdiyi mühüm siyasətidir. Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. “HorraPress” yazır ki, tolerantlıq və dialoq sahəsində görülmüş işlər nəticəsində 2016-cı ildə Papa Fransisk Azərbaycana səfəri zamanı Müqəddəs Bakirə Məryəm məbədində olub, Azərbaycanı sivilizasiyalar arasında körpü adlandırıb.

Yazıda Mehriban Əliyevanın Heydər Əliyev Fondu ilə UNESCO arasında əlaqələrin inkişafına yönəlmiş fəaliyyəti xüsusi vurğulanır, qeyd olunur ki, bu fəaliyyət Azərbaycan mədəniyyətinin və mədəniyyətlərarası dialoqun beynəlxalq səviyyədə təbliğinə böyük əhəmiyyət kəsb edir. Azərbaycanın Birinci Xanımının fəaliyyətinin etirafı kimi 2004-cü ildə o, qeyri-maddi mədəni irsin təbliğinə və qorunmasına görə xoşməramlı səfir seçilib. Bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən işlənib hazırlanmış siyasətin həyata keçirilməsi və Birinci vitse-prezident Mehriban Əliyevanın xoşməramlı səfir kimi fəaliyyəti nəticəsində Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, ənənəvi Azərbaycan xalçaçılıq sənəti, ənənəvi çövkən at oyunu, kəlağayı qadın baş örtüyünün hazırlanması və geyim mədəniyyəti və simvolikası, Lahıc misgərlik sənəti, Novruz bayramı, lavaş, katırma, yufka - nazik çörək növlərinin hazırlanması, dolmanın hazırlanması ənənələri UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. 2019-cu ildə Azərbaycanın qədim Şəki şəhərinin tarixi mərkəzi və Şəki Xan Sarayı UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olunub.

Fəaliyyəti dövründə əldə etdiyi bu və ya digər nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Fondun gələcək fəaliyyətinin əsasında qeyd etdiyimiz məsələlərin daha da geniş bir planda, layihələr əsasında həyata keçirilməsi dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rusiya XİN: Azərbaycan Silahlı Qüvvələrinin təlimləri regionda sabitlik və təhlükəsizlik üçün risk yaratmır




Azərbaycan Silahlı Qüvvələrinin əməliyyat-taktiki təlimləri regionda sabitlik və təhlükəsizlik üçün risk yaratmır. AZƏRTAC xəbər verir ki, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada brifinqdə söyləyib. O deyib: “Adətən hərbi təlimlər Cənubi Qafqazın bütün dövlətləri tərəfindən aparılır, bu, müntəzəm əsasda keçirilir, müvafiq məlumatlar maraqlı tərəflərə əvvəlcədən çatdırılır. Bizdə olan məlumata görə, adıçəkilən təlimlər, artıq vurğuladığım kimi, planlı xarakter daşıyır, ordunun döyüş hazırlığının təkmilləşdirilməsinə istiqamətlənib, regionda sabitlik və təhlükəsizlik üçün risk yaratmır”.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiqlədiyi plana müvafiq olaraq, martın 15-dən başlayaraq, Azərbaycan Ordusunda qoşun (qüvvə) növlərinin cəlb edildiyi əməliyyat-taktiki təlimlər keçiriləcək. Müdafiə nazirinin rəhbərliyi ilə keçiriləcək təlimə 10.000 nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemləri və minaatanlar, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq.

# Ədalət Vəliyev: “Dialoqdan boyun qaçıranlar hansısa dairələrin çirkin maraqlarına xidmət edirlər”



“Prezident İlham Əliyevin apardığı siyasi islahatlar nəticəsində ölkədə sağlam iqtidar-müxalifət münasibətləri qurulub, dialoq aparılır”. SİA-nın verdiyi məlumata görə, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev martın 10-da Milli Məclisdə “Siyasi dialoqun Azərbaycan modeli: qanunvericilik hakimiyyətinin rolu” mövzusunda keçirilmiş konfransda çıxışı zamanı deyib. PA-nın şöbə müdiri bildirib ki, dialoqdan boyun qaçıranlar hansısa dairələrin çirkin maraqlarına xidmət edirlər.

Xatırladaq ki, martın 10-da Milli Məclisdə “Siyasi dialoqun Azərbaycan modeli: qanunvericilik hakimiyyətinin rolu” mövzusunda konfrans keçirilmişdi. Videokonfrans formatında keçirilən tədbirdə Milli Məclisin sədri Sahibə Qafarova, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, Milli Məclisdə təmsil olunan siyasi partiyaların rəhbərləri və nümayəndələri, Milli Məclisin 80-dək deputatı iştirak ediblər.

# Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb



Xarici İşlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında baş tutub. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, görüşdə nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın ərazilərinə hərbçilərini göndərmək cəhdləri, gündəlik əsasda insanların həyatı üçün birbaşa təhlükə təşkil edən mina xəritələrinin Azərbaycana verilməsindən imtina edilməsi kimi məsələlər barədə qarşı tərəfə məlumat verdi. Nazir, həmçinin bölgədə həyata keçirilən quruculuq və bərpa prosesləri bu xüsusda Aİ-nin mümkün rolundan danışdı.

Xüsusi nümayəndə Toivo Klaar bölgədə sülhün qazanılması üçün birgə çalışmağın vacibliyini qeyd etdi. Aİ-nin bölgədə sülh, təhlükəsizlik və tərəqqinin əldə olunması prosesini dəstəkləməyə hazır olduğunu vurğuladı. Tərəflər, eyni zamanda Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi apardılar.

# Özbəkistan portalı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı Qələbədən yazır

Özbəkistanın “azon.uz” xəbər portalında Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı qələbədən yazır. “Dağlıq Qarabağda Qələbə amili, yaxud dronlar haqqında” sərlövhəli məqalə özbək dilində dərc edilib.




AZƏRTAC xəbər verir ki, saytın hərbi məsələlər üzrə şərhçisi Şokir Dolimovun məqaləsində bildirilir ki, Azərbaycan öz torpaqlarını Ermənistanın işğalından azad edərkən XXI əsrin taktika və strategiyasından faydalanıb və sözün əsl mənasında “Dronlar müharibəsi” aparıb. “Bu müharibədə Azərbaycan XXI əsrin müharibəsini aparan dövlət kimi hərb tarixinə düşüb və bu, mübaliğəsiz belədir”, - deyə müəllif qeyd edib.

Müharibədə Türkiyənin və İsrailin ən müasir dronlarından istifadə olunduğunu diqqətə çatdıran müəllif Türkiyənin “Bayraktar TB2”, İsrailin “Nagor” və Azərbaycan istehsalı olan dronların texniki göstəriciləri haqqında məlumat verir. Məqalədə əsgərlərimizin qəhrəmanlığı, Şuşanın alınmasındakı şücaəti haqqında məlumat verilir, bu qədim şəhərin faktiki olaraq əlbəyaxa döyüş ilə alındığı diqqətə çatdırılır.

# Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının iclası keçirilib







Martın 12-də Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının iclası keçirilib.

İclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Təftiş Komissiyasının üzvlərini bu məsuliyyətli vəzifəyə seçilmələri münasibətilə təbrik edib. YAP Mərkəzi Aparatının rəhbəri partiyanın Təftiş Komissiyasının qarşıda duran vəzifələri uğurla yerinə yetirəcəyinə əminliyini ifadə edib.

YAP-ın VII Qurultayının ölkəmzin ictimai-siyasi həyatında mühüm hadisə və yeni mərhələnin başlanğıcı olduğunu deyən Tahir Budaqov partiyamızın sədri, Prezident İlham Əliyevin qurultayda dərinməzmunlu, proqram xarakterli çıxışının partiyanın fəaliyyətində əsas istiqamət olduğunu nəzərə çatdırıb. Tahir Budaqov, həmçinin partiyamızın sədri İlham Əliyevin tövsiyyələrini Təftiş Komissiyasının üzvlərinin diqqətinə çatdırıb. O, komissiyanın üzvlərinə fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra təşkilati məsələlərə baxılıb. Milli Məclisin deputatlarından Sevinc Hüseynova, Sadiq Qurbanov və Nizami Səfərov iclasda çıxış edərək, Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevə və YAP sədrinin birinci müavini Mehriban xanım Əliyevaya komissiya üzvləri adından yüksək etimad üçün təşəkkürlərini bildirib, komissiyanın üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi istiqamətində səylə çalışacaqlarını qeyd ediblər.

İclasda daha sonra təşkilati məsələlərə baxılıb. Milli Məclisin deputatlarından Sevinc Əmirəhməd qızı Hüseynova Təftiş Komissiyasının sədri, Nizami Abdulla oğlu Səfərov sədr müavini seçildi. İclasda, həmçinin YAP-ın yeni Nizamnaməsinə əsasən, Təftiş Komissiyasının reqlamentinin hazırlanması və digər məsələlər də müzakirə olunub. Komissiyanın üzvləri müzakirə olunan məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

# Azərbaycanın müdafiə naziri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb

Martın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə əks-həmlə əməliyyatı ilə başlayan Vətən müharibəsinin Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatdığını və torpaqlarımızın işğaldan azad edildiyini vurğulayıb. Azərbaycan Ordusu tərəfindən keçirilmiş uğurlu hərbi əməliyyatlar haqqında qonağa məlumat verən nazir qeyd edib ki, 44 gün davam edən müharibədə ordumuzun qazandığı döyüş təcrübəsi bir çox dünya ölkələrinin orduları və beynəlxalq hərbi ekspertlər tərəfindən öyrənilir.

Müharibə zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə, Bərdə, Tərtər və digər yaşayış məntəqələrini müntəzəm atəşə tutmasını, məqsədyönlü şəkildə dinc əhalini qətlə yetirməsini ciddi pisləyən general-polkovnik Zakir Həsənov beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə layiqli qiymət verilməsinin və həmin hadisələri törədənlərə qarşı müvafiq tədbirlərin görməsinin vacibliyini vurğulayıb.

# YAP-ın Gənclər Birliyində yeni mərhələ

Ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olan Yeni Azərbaycan Partiyasının VII qurultayında Azərbaycanda baş verən hadisələr, verilən qərarlar, atılan addımların uğurunun arxasında qərarların zamanında qəbul edilməsidir. Bəlkə də bu gün atılan hər hansı addım 1 il, 2 il və hətta deyərdim ki, 1 ay öncə atılsaydı, bu qədər effektiv nəticə əldə etmək olmazdı. Biz bunun 26 il danışıqlar prosesindən sonra torpaqlarımızın işğaldan azad olunması barədə hücum Əmrinin verilməsində də əminliklə şahidi olduq. Bütün bunlar ölkə başçısının düşünülmüş, uzaqgörən siyasətindən irəli gəlir. Mart ayının 5-də Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının VII qurultayı zamanı partiyada edilən yeniliklərin gənclər birliyini də əhatə etdiyini söyləyib.



Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, gənc nəslin tərbiyə edilməsi hər bir dövlət üçün xüsusi əhəmiyyət daşıyan məsələdir: "Əgər gənc nəsil tərbiyə edilməsə, əgər gənc nəslə ümumbəşəri dəyərlər aşılanmasa, o zaman gələcəkdə problemlər qaçılmazdır. Çünki biz bu gün də görürük ki, nəsillər dəyişdikcə bəzi ölkələrdə radikal qüvvələr ya hakimiyyətə gəlir, ya da ki, ildən-ilə, seçkilərdən-seçkilərə onlara verilən səslərin sayı çoxalır. Onların arasında faşist partiyaları var, onların arasında islamofob şüarlarla hakimiyyətə gəlmək istəyənlər var, onların arasında radikallar var. Bütün bunlar onu göstərir ki, tərbiyə işində boşluqlar olub. Sadəcə olaraq, ölkələrin təhsil sistemi bu sahəyə diqqət yetirməyib. Amma tərbiyə həm dərslər zamanı verilməlidir, eyni zamanda, ölkədə hökm sürən ab-hava ilə - o da tərbiyə üsullarından biridir. Məsələn, əgər Azərbaycanı misal gətirsək, bizdə iqtidarın siyasəti xalq tərəfindən məhz ona görə dəstəklənir ki, iqtidarın siyasəti xalqın maraqlarını güdür. Harada ki, xalqın maraqları ön plandadır, o ölkələrdə nəsildənnəslə keçən ənənələrlə yaşayır və biz bu ənənələri yaşatmalıyıq. O ölkələrdə ki, milli identifikasiya artıq arxa plana keçir, o ölkələrdə ki, ənənəvi dəyərlər demək olar ki, deqradasiyaya uğrayır, o ölkələrin gələcəyi çox problemli ola bilər".

### "Siyasi partiyalarda fəaliyyət göstərən gənc nəslə elə təlimat verilməlidir ki, onlar gələcək həyata hazırlıqlı olsunlar, onlar ölkəmizin müstəqilliyini hər şeydən üstün tutsunlar"

Dövlət başçısı onu da bildirib ki, ölkəmizin imicini aşağı salmaq, ölkə daxilində inamsızlıq yaratmaq, saxta faktlar ortaya atmaq - bütün bunların bir məqsədi var, çaxnaşma, xaos şəraitində gələcəkdə, hansısa xarici dairələr üçün zəmin yaratmaq: "Biz buna imkan verə bilmərik. Ona görə gənc nəslin tərbiyə edilməsi gündəlik fəaliyyətimiz olmalıdır. Həm ali məktəblərdə, ilk növbədə, ailələrdə və eyni zamanda, siyasi partiyalarda buna fikir verilməlidir. Siyasi partiyalarda fəaliyyət göstərən gənc nəslə elə təlimat verilməlidir ki, onlar gələcək həyata hazırlıqlı olsunlar, onlar ölkəmizin müstəqilliyini hər şeydən üstün tutsunlar".

### "Yeni Azərbaycan Partiyası həmişə bu sahədə fəal olub, bizim dövlət siyasətimiz də bu sahədə birmənalıdır"

Prezident İlham Əliyev YAP-ın qurultayında onu da söyləyib ki, burada, əlbəttə ki, təcrübəli nəslin fəaliyyətindən çox şey asılıdır: "Misal üçün, Yeni Azərbaycan Partiyasında Veteranlar Şurası yaradılıb. Hesab edirəm ki bu, çox önəmli addımdır. Bu Veteranlar Şurasının tərkibində tanınmış hörmətli insanlar fəaliyyət göstərəcəklər. Mən onlardan da xahiş edirəm ki, onlar da çox fəal olsunlar, bölgələrdə olsunlar, gənc nəslin nümayəndələri ilə görüşsünlər. Ölkə haqqında həqiqətləri gənc nəsil bilmir, hansı ki, 1991-1992-ci illəri görməyiblər. Bu haqda məlumat verilməlidir ki, onlar bilsinlər, biz nəyin bahasına bugünkü reallıqları əldə etmişik. Vətən müharibəsi ilə bağlı, postmüharibə dövrü ilə bağlı məlumatlar verilməli, bütün bunlar izah edilməlidir. Çünki xaricdən, oradan-burdan yalan, saxta məlumatlar gəlir və bəzi hallarda gənc insanlar buna inanırlar. Məhz o hesabat da bunun üzərində qurulur və gənc nəslimizin milli ruhda, milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi ən başlıca vəzifələrdən biridir. Ənənələrimiz, dəyərlərimiz, yaşayış tərzimiz - bütün bunlar bizim sərvətimizdir, biz bunu itirə bilmərik və itirməməliyik. Ona görə gənc nəslin tərbiyə edilməsi çox önəmli məsələdir və burada milli-mənəvi dəyərlər ön plandadır. Digər önəmli məsələ isə odur ki, - Yeni Azərbaycan Partiyası həmişə bu sahədə fəal olub, bizim dövlət siyasətimiz də bu sahədə birmənalıdır, - Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir ailə kimi yaşayırlar və bundan sonra da bir ailə kimi yaşayacaqlar. Bu, bizim böyük sərvətimizdir. Mən də müxtəlif tədbirlərdə demişəm ki, bizim dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir".

### Məhz Azərbaycan Prezidentinin tarixi tövsiyələrinə əməl edərək Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin iclası keçirilib

Martın 11-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin keçirdiyi iclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının VII Qurultayının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirib. Tahir Budaqov qeyd edib ki, qurultayda partiyamızın sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqi YAP üzvləri qarşısında yeni vəzifələr müəyyələşdirir. 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etdiyini, ölkəmizin ərazi bütövlüyünün təmin olunduğunu deyən YAP sədrinin müavini bununla da müasir Azərbaycanın tarixində yeni səhifənin açıldığını söyləyib. Onun sözlərinə görə, qazanılan Zəfərdən sonra Azərbaycanın qarşısında daha möhtəşəm vəzifələr dayanır. Ona görə də, Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətində bu vəzifələrin yerinə yetirilməsi xüsusi diqqət mərkəzində olacaq.

Yeni Azərbaycan Partiyasının ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən Tahir Budaqov qeyd edib ki, hər bir şəxs üçün Ulu Öndərin yaradıcısı olduğu partiyanın üzvü olmaq böyük şərəfdir. YAP-ın yaranma tarixindən, o dövrün ictimai-siyasi proseslərindən bəhs edən Mərkəzi Aparatın rəhbəri bildirib ki, 1990-cı illərin əvvəllərində respublikada xaos, anarxiya hökm sürürdü və dövlətçilik məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə Azərbaycanın gələcəyini düşünən ziyalılar ulu öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı müraciət etdilər. YAP yarandıqdan qısa müddət sonra xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdı, ölkəni məhv olmaq təhlükəsindən xilas edərək inkişaf yoluna çıxardı. YAP-ın ötən dövrdə böyük yol keçdiyini deyən Tahir Budaqov söyləyib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni inkişaf mərhələsini yaşayır. YAP Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilib. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada söz sahibi olan dövlətə çevrilib, artıq ölkəmizin həyatında yeni inkişaf mərhələsi başlayıb. Bu baxımdan, YAP qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidir. Bu prosesdə partiyamızın gəncləri də fəal iştirak etməlidir.Ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin həyata keçirildiyini deyən Tahir Budaqov ölkəmizdə gəncliyin inkişafı üçün bütün imkanların yaradıldığını diqqətə çatdırıb.

Onun sözlərinə görə, YAP-ın gəncləri bundan sonra da Heydər Əliyev irsinin dərindən öyrənilməsi və təbliği, Prezidentimizin siyasətinin fəal təbliğatı, milli mənəvi dəyərlərin qorunması və s. sahələrdə fəallığını gücləndirməlidir. YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, partiyanın yeni Nizamnaməsinə əsasən, YAP Gənclər Birliyinin sədri və müavinləri partiya sədrinin təqdimatı əsasında İdarə Heyəti tərəfindən təsdiq edilir. Artıq bu barədə müvafiq qərar qəbul olunub. Belə ki, Bəxtiyar Qabil oğlu İslamov YAP Gənclər Birliyinin sədri, Sevinc Saleh qızı Qasımova və Fəsli Nəbi oğlu Nəbiyev sədrin müavini təyin olunublar. Eyni zamanda, 30 nəfər YAP Gənclər Birliyinin üzvü seçilib. Tahir Budaqov, bütövlükdə YAP gənclərinin ölkəmizin inkişafı prosesinə öz töhfələrini fəal şəkildə verməl追 lərini deyib.

**RƏFİQƏ HÜSEYNOVA**

# Qarabağ ermənisi: "Əhvalımız yaxşı deyil, burada hamı depressiyadadır"



Dağlıq Qarabağda yaşayan ermənilər acınacaqlı vəziyyətlə üzləşiblər. Onlar əvvəlki kimi xoşbəxt olmadıqlarını, hər an qorxu içində yaşadıqlarını deyirlər. Azvision.az xəbər verir ki, müharibə vaxtı İrəvana qaçmış, hazırda Xankəndində yaşayan erməni qadın Anaida Ayrapetyan hazırkı durumlarından şikayətlənib.

"Burada insanların əhvalı yaxşı deyil. Üstəlik, hələ də hamının ürəyində qorxu var. Axşam 9-dan sonra nəqliyyat işləmir, küçələrdə az insan gözə dəyir. Az-çox gənclər küçədə olur. Amma qaranlıq düşən zaman hamı evində olur", - Anaida erməni KİV-ə müsahibəsində deyib. Müharibədən sonra Ermənistanla yanaşı Xankəndində də qiymətlər bahalaşıb, yaşayış çətinləşib.

Anaida bildirib: "Qiymətlər dəhşət saçır. Əvvəl 550 drama olan kərə yağı indi 1020-1100 dramadır. 380 drama satılan şəkər tozu hazırda 450-yədir. İcarə qiymətləri də xeyli artıb. İnsanlar hazırkı durumdan sui-istifadə edirlər. Amma ayıbdır. Evsizlər yaranıb. İndi iki otaqlı evin qiyməti 100 minə qalxıb. Əvvəl isə 70-80 min dram idi. Hətta 50 minə bir otaq tapa bilərsiniz. Şəhərdə nə qədər evsizin qaldığı bilinmir. Ancaq "Facebook"da oxuduqda mənzil axtaran çox sayda evsizin olduğunu görürsən. Bələdiyyənin qarşısındakı növbələr isə dəhşətlidir. Hazırda nəqliyyat həm şəhərdə, həm də kəndlər arasında işləyir. Lakin marşrutlar əvvəlki kimi hərəkət etmirlər".

Onun sözlərinə görə, yerli ermənilər arasında işsizlər çoxalıb, insanlar depressiyadadırlar, heç nə etmək istəmirlər. Erməni qadın orta məktəbdə xadimə işlədiyini söyləyib: "İnsanlar tənbəl, ümidsiz hala gəldilər. Kəndlərdən gələn köçkünlər torpaqla işləmək istəyirlər. Amma işləmək üçün torpaq varmı?"

Anaida sonda qeyd edib ki, münaqişə yekunlaşsa da, ermənilər arasında müharibənin müxtəlif tarixlərdə yenidən başlanacağına dair şayiələr dolaşır: "Deyirlər ki, ayın 12-si və ya 16-sı vəziyyət yenidən dəyişə bilər. Yəni qeyri-müəyyənlikdir. Ümid edirik ki, hər şey qaydasında olacaq".

# Füzulidə ermənilərin atıb qaçdığı silah-sursat tapıldı



İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan "İki sahil"ə verilən məlumata görə, Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş növbəti belə tədbirlər zamanı erməni hərbi birləşmələrinin ataraq qaçdığı 20 ədəd "SPİKE" markalı tank əleyhinə idarəolunan raket kompleksi, 2 ədəd "SPQ-9" markalı tank əleyhinə raket kompleksi, 11 ədəd müxtəlif markalı piyada əleyhinə raket kompleksləri, 2 ədəd qumbaraatan, 78 ədəd qumbaraatan mərmisi, 6 ədəd avtomat sandığı və 330 ədəd pulemyot gülləri aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

# Yeni Azərbaycan Partiyasının VII qurultayı partiyamızın inkişafında yeni mərhələnin başlanğıcıdır



*Bakı Ali Neft Məktəbinin rektoru, YAP İdarə Heyətinin üzvü Elmar Qasımovun yap.org.az-a müsahibəsi*

***- Elmar müəllim, məlumdur ki, martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirildi. Bu qurultayın əhəmiyyəti və onun keçirilməsini zəruri edən amillər barədə nə deyə bilərsiniz?***

- Əvvəla qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının VII qurultayı həm ölkəmiz, həm də partiyamız üçün əlamətdar və mühüm ictimai-siyasi hadisədir. Çünki YAP cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirən ümumxalq partiyasıdır və ölkə daxilində ictimai-siyasi münasibətlərin inkişafında, həmçinin Azərbaycanın tərəqqisində mühüm rol oynayan aparıcı qüvvədir.

Bilirsiniz ki, partiyamızın VI qurultayı 3 il əvvəl - 2018-ci ildə keçirilmişdi. O zamandan bu günə qədər bir çox dəyişikliklər baş verib. Ölkəmizdə parlament və prezident seçkiləri keçirilib, Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən sistemli, genişmiqyaslı və kompleks islahatlar reallaşdırılıb. Eyni zamanda, Azərbaycanın gələcək inkişafı üçün yeni hədəflər və strateji prioritetlər müəyyənləşdirilib, bu istiqamətdə addımlar atılıb, ciddi nailiyyətlər əldə olunub. Ən əsası, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə qazanıb. Nəticədə Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olunub. Yeni Azərbaycan artıq yeni reallıqlar yaradıb. Bu reallıqlar həm ölkəmiz, həm də bütövlükdə region üçün yeni perspektivlər vəd edir, yeni çağırışlar yaradır.

Təbii ki, Yeni Azərbaycan Partiyası da öz fəaliyyətini zamanın tələblərinə və çağırışlarına uyğun formalaşdıran xalq partiyasıdır. Ona görə də bütün bu və digər amillər yeni mərhələnin əsasını qoyduğu üçün Yeni Azərbayca Partiyasının da növbəti qurultayını zəruri edən faktorlar olub. Düşünürəm ki, YAP yeni dönəmdə də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək ölkəmizin dinamik inkişafına öz müstəsna töhfəsini verəcək.

***- Yeri gəlmişkən, VII qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması istiqamətində mühüm qərarlar qəbul olundu. Bu, partiyanın gələcək fəaliyyətinə necə təsir göstərəcək?***

- Bəli, Yeni Azərbaycan Partiyasının VII qurultayında partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. Partiyanın yeni Nizamnaməsi təsdiq edildi, YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı. Yeri gəlmişkən, dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə bizə göstərilən etimada görə dərin təşəkkümüzü bildirir və qeyd etmək istəyirəm ki, bu etimadı layiqincə doğrultmağa çalışacağıq.

Öncəliklə qeyd edim ki, partiyanın Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi. Həmin dövr ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atıb. Eyni zamanda, yeni islahatlar və dəyişikliklər çərçivəsində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. Bütün bu məsələlər YAP-ın VII qurultayında təsdiq edilən yeni nizamnamədə öz əksini tapıb. Bütövlükdə, sözügedən addımlar partiya həyatında daha çevik və effektiv idarəetmə mexanizminin formalaşdırılması baxımından böyük əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə uyğun olaraq, partiyamızın Sədri cənab İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini, Tahir Budaqovun partiya Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Əli Əhmədovun isə partiya Sədrinin müavini təyin edilməsi YAP-ın fəaliyyətində yeni keyfiyyət dəyişikliklərinin əsasının qoyulması və qarşıdakı dövrdə ardıcıl nailiyyətlərin əldə olunması baxımından xüsusi önəm daşıyır.

Xüsusi olaraq vurğulamaq istəyirəm ki, Mehriban xanım Əliyevanın partiyamızın Sədrinin birinci müavini kimi fəaliyyəti YAP-ın nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından olduqca mühüm əhəmiyyətə malikdir. İnkaredilməz həqiqətdir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli maraqlara, bəşəri dəyərlərə əsaslanan çoxşaxəli fəaliyyəti həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə çox yüksək qiymətləndirilir, dərin rəğbətlə qarşılanır. Mehriban xanım Əliyeva ötən müddət ərzində milli maraqları daim üstün tutaraq xalqa və dövlətə ləyaqətlə xidmət edib, vətəndaş məmnunluğunun artmasına, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən mühüm təşəbbüslərlə çıxış edib, xüsusilə də sosial məsələlərin həllinə yüksək diqqət göstərib. Bunlarla yanaşı, fəaliyyəti humanizm və vətənpərvərlik prinsiplərinə əsaslanan Mehriban xanım Əliyeva ölkəmizin müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına müstəsna töhfələr verib. Ona görə də qeyd etdiyim kimi, Mehriban xanım Əliyevanın partiyamızın Sədrinin birinci müavini təyin edilməsi yeni mərhələdə Yeni Azərbaycan Partiyasının inkişafına təkan verəcək, partiyamızın və ölkəmizin yeni nailiyyətlər əldə etməsində mühüm əhəmiyyətə malik olacaq.

Yeri gəlmişkən, partiya Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri təyin olunan Tahir Budaqov da çox təcrübəli və yüksək təşkilatçılıq bacarığına malik olan şəxsdir. Tahir müəllimin hələ 1992-ci ilin sonu - 1993-cü ilin əvvəlində tanınmış alim, professor Vaqif Şadlınski ilə birlikdə Azərbaycan Tibb Universitetində Yeni Azərbaycan Partiyasının ərazi ilk partiya təşkilatının yaradılmasında mühüm rolu olub. Ümummilli liderimiz Heydər Əliyevin tövsiyəsi ilə o, 1999-cu ildə YAP Siyasi Şurasının üzvü olub. Bununla yanaşı, Ulu öndər Heydər Əliyev Tahir Budaqovu 1999-cu ildə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini təyin edib. 2006-2009-cu illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasında şöbə müdirinin müavini işləyən Tahir Budaqov Prezident İlham Əliyev tərəfindən 2009-cu ildə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı təyin olunub. O, bu vəzifələrdə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirib. Azərbaycan Respublikası Prezidentinin 13 avqust 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri vəzifəsinə təyin edilən, eyni zamanda, “SOS Uşaq Kəndləri - Azərbaycan” Assosiasiyasının idarə heyətinin sədri olan Tahir Budaqov hansı vəzifədə işləməsindən asılı olmayaraq, Ümummilli liderimiz Heydər Əliyevin, Prezident İlham Əliyevin ona olan etibarı və etimadını layiqincə doğruldub. Təsadüfi deyil ki, Tahir müəllim cəmiyyətdə Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin siyasətinə, dövlətə və dövlətçiliyə sadiq şəxsiyyət kimi tanınır. Onu da qeyd edim ki, Tahir Budaqov Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini olarkən Qarabağ müharibəsi şəhidlərinin ailələri və müharibə əlilləri ilə birbaşa işləyib. Ona görə də hesab edirəm ki, Tahir Budaqovun YAP-ın Sədr müavini - Mərkəzi Aparatın rəhbəri təyin olunması partiyamızın şəhid ailələri və müharibə veteranları, əlillər və qazilərlə iş istiqamətində fəaliyyətinə böyük təkan olacaq. Əlbəttə, biz də YAP İdarə Heyətinin üzvləri kimi partiyamızın Mərkəzi Aparatının fəaliyyətində yaxından iştirak edəcək və öz dəstəyimizi göstərəcəyik.

***- Elmar müəllim, qeyd olunduğu kimi, Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edildi. Bunu şərtləndirən amillər nədən ibarətdir?***

- Təbii ki, ilk növbədə Ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu, ötən müddət ərzində partiyamızın Sədri, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçən YAP-ın yüksək nüfuzu belə bir istəyin və reallığın meydana çıxmasına səbəb olub. Bu, eyni zamanda, Yeni Azərbaycan Partiyasının, sözün əsl mənasında, ümumxalq partiyası olduğunu göstərir. Bu fakt qələbələr partiyası kimi tanınan Yeni Azərbaycan Partiyasının timsalında iqtidara böyük inam və etibarın olmasından xəbər verir.

İndiki mərhələdə 6 siyasi partiyanın YAP-a qoşulması fonunda Yeni Azərbaycan Partiyası milli həmrəyliyin təcəssümünə çevrilib. Bu reallıq yeni mərhələdə həm partiyamızın, həm də ölkəmizin inkişafı baxımından mühüm əhəmiyyətə malik olacaq. Digər tərəfdən, belə bir addım Azərbaycanda siyasi sistemin inkişafına, siyasi münasibətlərin sağlam zəmində cərəyan etməsinə və dialoq mühitinin genişləndirilməsinə xidmət göstərir.

***- Yeri gəlmişkən, bu, ölkəmizdə siyasi dialoq mühitinin gücləndirilməsi və siyasi sistemin inkişafı baxımından nə dərəcədə əhəmiyyətlidir?***

- Əlbəttə, 6 siyasi partiyanın YAP-a qoşulması həm də ölkəmizdəki siyasi dialoq mühitinin göstəricisi və nəticəsidir. Məlumdur ki, ölkəmizdə Prezident İlham Əliyevin iradəsi əsasında həyata keçirilən islahatlar çərçivəsində siyasi dialoq prosesinə start verilib. Struktur islahatları çərçivəsində Prezident Administrasiyasının yeni yaradılan Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə iş şöbəsi ötən müddət ərzində bu istiqamətdə fəaliyyətini uğurla davam etdirib. Bəhs olunan şöbənin müdiri cənab Ədalət Vəliyev müxtəlif partiya sədrləri ilə çoxsaylı görüşlər keçirib və bu, siyasi dialoqun inkişafı, demokratik ənənələrin gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, bu əlverişli dialoq mühitinin nəticəsidir ki, siyasi qüvvələr arasında etimad artıb, inteqrasiya prosesi sürətlənib. Bu isə öz növbəsində milli həmrəyliyin möhkəmlənməsinə mühüm töhfə olub. 44 günlük Vətən müharibəsində əksər siyasi partiyaların Ali Baş Komandanımıza və Azərbaycan Ordusuna qətiyyətli dəstək verməsi bu siyasi birliyin və milli həmrəyliyin bariz nümunəsidir.

Nəticədə düşünürəm ki, etimada əsaslanan bu dialoq mühiti gələcəkdə də ictimai-siyasi proseslərin milli maraqlar əsasında cərəyan etməsinə və Azərbaycan demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsinə, milli həmrəyliyin daha da güclənməsinə xidmət edəcək.

## Azərbaycanda koronavirusa 576 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından 217 nəfər müalicə olunaraq sağalıb, 576 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 238 min 959 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 230 min 461 nəfər müalicə olunaraq sağalıb, 3268 nəfər vəfat edib. Aktiv xəstə sayı 5230 nəfərdir. Ötən müddət ərzində 2 milyon 690 min 711 test aparılıb. Bugünkü test sayı isə 8595-dir.

## Niderland saytı erməni vandalizmindən yazır




Niderland Krallığında yaşayan azərbaycanlı psixoterapevt İlkanə Qocanın https://republic-underground.com saytında “Qarabağ ürəkli və Ağdam köklü niderlandlı” sərlövhəli müsahibəsi dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatında deyilir ki, saytın əməkdaşı Reyçel Bruksun qələmə aldığı müsahibədə əslən ağdamlı olan, hazırda Niderlandda yaşayan İlkanə Qocanın 1993-cü il 23 avqust tarixli erməni işğalı ərəfəsində Ağdamda baş verənlər, I Qarabağ müharibəsi, Xocalı soyqırımı barədə ağrılı-acılı xatirələri və 2020-ci ilin noyabrında doğma yurdunun azad olunmasına dair fikirləri nəzərə çatdırılıb. Özünü “Ağdamlı, azərbaycanlı kökləri olan niderlandlı” adlandıran, son 27 ildə dəhşətli müharibənin bütün ağrısını və acısını arxada qoymaq üçün çox çalışdığını söyləyən soydaşımız Ağdamın geri qaytarıldığı 20 noyabr 2020-ci il tarixini həyatının yeni səhifəsi kimi dəyərləndirib. Bildirib ki, ermənilər Ağdamı dağıdıblar və təhqid ediblər: “Ağdam - Qafqazın Xirosimasıdır və dünyada ikinci “ruhlar şəhəri”dir. O yenidən bizi salamlayır”, - deyə İ.Qoca vurğulayıb.

Müsahibəni daha ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür:

https://republic-underground.com/a-dutchman-with-karabakhi-heart-and-aghdami-roots

# DSX-nin Ermənistanla sərhəddə yeni hərbi hissəsi açılıb













***Dövlət Sərhəd Xidmətinin (DSX) martın 12-də Zəngilan rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb.***

Dövlət Sərhəd Xidmətindən SİA-ya verilən məlumata görə, bununla əlaqədar təşkil olunmuş tədbirdə çıxış edən DSX rəisinin müavini, general-leytenant İlham Mehdiyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən "Dəmir Yumruq" əməliyyatı nəticəsində ölkəmizin ərazi suverenliyinin bərpa olunduğu, milli və sərhəd təhlükəsizliyimiz üçün 30 ilə yaxın müddətdə əsas təhdid olmuş ölkə ərazisinin 20 faizinin, o cümlədən İranla dövlət sərhədinin 132 km, Ermənistanla dövlət sərhədinin 500 km sahəsinin işğalına son qoyulduğu, Vətən müharibəsinin Azərbaycanın Ermənistan üzərində parlaq qələbəsi ilə başa çatdığını vurğulayıb.

Vətən müharibəsi zamanı DSX qarşısında Ali Baş Komandanımız tərəfindən qoyulmuş döyüş tapşırıqlarının uğurlu icrası üçün bütün qüvvə və vasitələrin tam səfərbər edilməsi, Azərbaycan-İran dövlət sərhədinin işğalda olan hissəsinin, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının yaxından iştirak etməsi, Azərbaycan sərhədçilərinin rəşadət dastanı yazmaları xüsusi qeyd olunub.

Döyüş əməliyyatlarının ilk günündən başlayaraq Azərbaycan sərhədçiləri Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazini azad ediblər. 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə dağıdıcı zərbələr endirilərək Qədim Xudafərin körpüsündə, Zəngilan rayonunun Ağbənd qəsəbəsində və Zəngilan şəhərində Dövlət bayrağı qaldırılıb, qızğın döyüşlər nəticəsində Ermənistanla dövlət sərhədində "Bartaz" və "Şükürataz" strateji yüksəklikləri azad edilib.

AN-2 təyyarələrinin pilotsuz uçuş aparatları kimi modernləşdirilərək müasir döyüş elementləri sırasına əlavə edilməsi və xüsusi döyüş fəndi kimi tətbiqi, DSX-nin "Harop", "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarının peşəkar istifadəsi nəticəsində düşmənin hava hücumundan müdafiə sistemləri, zenit-raket kompleksləri, raket sistemləri, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələri və çoxsaylı canlı qüvvəsi zərərsizləşdirilmiş, ümumilikdə 290 düşmən hədəfi məhv edilib.

Hazırkı tədbirin baş tutduğu ərazilərdə DSX bölmələri tərəfindən düşmənə endirilən sarsıdıcı zərbələr, o cümlədən çoxsaylı silah-sursatın qənimət kimi götürülməsi, noyabr ayının 1-də Bartaz və Şükürataz yüksəklikləri uğrunda gedən döyüşlərdə şəxsi heyətə hücum edən düşmənin SU-25 qırıcı təyyarəsinin qəhrəman çevikçiləri tərəfindən atıcı silahlarla məhv edilməsi və bu kimi digər hərbi uğurların Vətən müharibəsi tarixinin önəmli hadisələrindən olması vurğulanıb.

Azərbaycan dövlətçiliyinə, Azərbaycan Respublikasının Prezidentinə sadiqliyi ilə seçilən, Ali Baş Komandanının rəhbərliyi altında işğalçı düşmən qüvvələrinə qarşı fədakarlıqla döyüşən Azərbaycan sərhədçisinin müqəddəs torpaqlarımızın azad olunmasında iştirakından, bu gün də səngərdə və sərhəddə böyük əzmlə xidmət aparmasından böyük şərəf və qürur duyması bildirib.

Ermənistanla dövlət sərhədinin əhəmiyyətli hissəsinin mühafizəsinə cavabdeh olan yeni hərbi hissənin fəaliyyətə başlamasının xüsusi əhəmiyyət kəsb etməsi qeyd edilib, hər zaman dövlət maraqlarının keşiyində duran Azərbaycan sərhədçisinin ölkəmizin müqəddəs hüdudlarını qorumaq kimi şərəfli missiyanın öhdəsindən bundan sonra da layiqincə gələcəyinə əminlik ifadə olunub.

Tədbirin sonunda xidməti fəaliyyətində yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltif edilib.

Sonra mərasim iştirakçıları hərbi hissənin şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə yerinə yetirilməsi üçün yaradılmış şəraitlə, o cümlədən zəruri avadanlıqlar, mebel, məişət əşyaları, istilik sistemi ilə təmin edilmiş xidməti otaqlar, kazarma və yeməkxana, hamam-camaşırxana kompleksi, anbar, silah və texniki vasitələrinə baxış keçiriblər.

# Dövlət Başçısı İlham Əliyevin YAP-ın VII qurultayındakı çıxışından strateji çıxarışlar



Azərbaycan öz tarixnin olduqca mühüm dövrünü yaşayır. Ölkəmiz 30 ilə yaxında davam edən Ermənistan işğalının ortadan qaldırılması üçün Dövlət Başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm bir tarix yazdı. 44 günlük Vətən Müharibəsi ərzində düşmən darmadağın edildi. Ümummilli Lider Heydər Əliyevin strategiyasının ehtişamı Cənab Prezidentin fəaliyyəti ilə ortaya qoyuldu.

Cənab Prezident ilk öncə dünya mətbuat tarixinə qızıl hərflərlə düşən mətbuat konfransında ölkəmizin siyasi kursunun mahiyyətini açıqladı. O bildirdi ki, Azərbaycan dövlətinin siyasəti həm müharibə zamanı, həm də müharibədən sonra birmənalıdır. Azərbaycan daim sülhün və əmin amanlığın tərəfində olmuşdur. Dövlətimiz müharibəyə meyilli aqressiv bir dövlət deyildir. Lakin torpaqlarımızın hərbi yolla azad edilməsi tarixi prosesin davamı olaraq zəruri bir tədbir idi.



**Bəxtiyar Eyvaz oğlu Nəbiyev, BDU-nun Tarix fakültəsinin dekan müavini t.ü.f.d, dos.**

Dövlət başçısı bəyan etmişdir ki, Azərbaycan Qafqazın iqtisadi və siyasi inkişafının tərəfdarıdır. Bunun üçün isə həm bölgə ölkələrinin, həm də digər tərəfdaşların düzgün nəticə çıxarması lazımdır. Xüsusi ilə Ermənistan rəhbərliyi müasir reallıqları düzgün qiymətləndirilməlidir.

Bəzən Ermənistan rəhbərliyinin məsələlərə yanaşmasında səslənən revanşist fikirlər öz daxilində ciddi problemlərə gətirib çıxarmışdır. Bu gün Ermənistan az qala vətəndaş müharibəsi ərəfəsindədir. Hərbçilərin bəyanatları faktiki olaraq hərbi çevriliş xarakteri alır. Ermənistan siyasi hakimiyyətinin ölkəni uçuruma sürükləməsi əhalinin ona etimadının itməsinə gətirib çıxardıbdır.

Burada bir daha bir məsələni vurğulamaq istərdim. Erməni anaları bizim Dövlət Başçımızın xalqının maraqlarını müdafiə edən siyasəti ilə öz hakimiyyətlərinin mənfur siyasətini müqayisə edir. Hətta övladlarının xilası üçün məhz Cənab Prezident İlham Əliyevə müraciət edirlər. Çünki Azərbaycan məhz onun siyasi fəaliyyətinin nəticəsində güclü, güclü olduğu qədər də humanist bir dövlətdir.

Son proseslər bir daha onu göstərdi ki, hər bir dövlət öz resurslarına əsasən strateji inkişaf xətti seçməlidir. Azərbaycanın istər daxili, istərsə də xarici siyasəti bu baxımından öz konseptuallığı ilə seçilir. Azərbaycanda regional inkişaf təmin edilmiş, regionun ən güclü ordusu formalaşmış, xalq və iqtidar birliyi təmin edilmişdir.

Cənab Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq 44 günlük müharibə dövründə bütün milli qüvvələr bir yumruq şəklində birləşmiş və o yumruq düşmənin başına enmişdir. 44 günlük Vətən Müharibəsi dövründə Azərbaycan ictimai həmrəyliyin zirvəsini nümayiş etdirmişdir. Bunun əksinə olaraq düşmən ölkəsinin cəmiyyəti daxili ziddiyyətlər dövrünə qədəm qoymuşdur. Hakimiyyət və xalq arasında uçurum yaranmış, ordu siyasi hakimiyyətə itaətsizlik nümayiş etdirmişdir.

Siyasi kursumuzun davamı olaraq önümüzdəki 4 ildə Azərbaycanın sosial-iqtisadi inkişaf siyasətinin 6 əsas strateji hədəfi müəyyən edilmişdir. Bunlar makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadi davamlılığın və iqtisadiyyatda şəffaflığın artırılması, milli iqtisadiyyatın və ixracatın rəqabət qabiliyyətinin artırılması, dövlət müəssisələrinin səmərəliliyi, özəl investisiyaların genişləndirilməsi və prioritet sahələrin inkişafının təmin edilməsi, milli yenilik ekosisteminin inkişafı və insan kapitalının inkişafının sürətləndirilməsi, bölgələrin sabit və davamlı inkişafının təmin edilməsi, işğaldan azad edilmiş ərazilərin bərpası, pandemiya və pandemiya sonrası dövrlərdə xalq sağlamlığının qorunması, sosial müdafiənin və sosial təminatın gücləndirilməsi, ekoloji tarazlığın qorunması, resursların səmərəli istifadəsi kimi mühüm məsələlərdir.

Azərbaycan Respublikasının xarici siyasətinin düzgünlüyü tarixi proseslərin gedişində özünü göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev ölkəmizin Türkiyə ilə qardaşlıq münasibətlərinin dərinləşdirilməsinin xarici siyasətimizdə önəmini hər zaman saxladığını vurğulamışdır. Bununla bağlı olaraq Dövlət Başçısı tərəfindən söylənilən fikirlər konseptual xarakter daşıyır.

Türkiyə və Azərbaycan qardaş ölkələrdir. Qardaşlığımız zamanın sınağından çıxdı. Konkret olaraq bu mövzuda Türkiyə Prezidenti açıq şəkildə Azərbaycana güclü dəstəyini bildirdi. Azərbaycanın tək olmadığını, Türkiyənin yanında olduğunu söylədi. Türkiyə ilə münasibətlərimizin uzun bir tarixi və daha da parlaq bir gələcəyi var. Türkiyə Cənubi Qafqazın hər üç ölkəsi ilə - Azərbaycan, Gürcüstan və Ermənistanla sərhədləri olan yeganə ölkə olması ona bölgədə söz sahibi olmaq hüququ verir. Beləliklə, görürük ki, Azərbaycan özünün regional və qlobal əhəmiyyətini siyasətinin düzgünlüyü ilə ortaya qoymuşdur.

Bütün bu proseslərin siyasi əsasını Azərbaycan Respublikasında hakim partiya olan YAP-ın ümumi kursu təşkil edir. Həmin kursun memarı Ümummilli Lider Heydər Əliyev olmuşdur. Müasir tariximizin ən mühüm haidsələrindən biri də YAP-ın VII qurultayının keçirilməsidir. Martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev və Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının Sədrinin müavini Mehriban xanım Əliyeva Qurultayın işində iştirak etdilər. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev qurultayda videoformatda geniş məruzə ilə çıxış etdi.

Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində gördüyü işlər, qazanılmış uğurlar və qarşıda duran vəzifələrlə bağlı qurultay nümayəndələrinin çıxışları dinlənildi. Qurultayda yekun olaraq təşkilati məsələlər müzakirə edildi. Qəbul edilmiş qərara əsasında Yeni Azərbaycan Partiyasının 40 nəfər tərkibdə İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası və yeni qurum olaraq YAP-ın Veteranlar Şurasının 35 nəfərlik tərkibi təsdiq edilmişdir. Qurultayda həmçinin, Azərbaycan Xalq Demokratik Partiyasının, Azərbaycan Kəndli Partiyasının, Milli Qurtuluş Partiyasının, Azərbaycan Yurddaş Partiyasının, Azərbaycan Milli Hərəkat Partiyasının və Azərbaycan Demoktatik Sahibkarlıq Partiyasının Yeni Azərbaycan Partiyasına birləşmək haqqında müraciətləri qəbul edildi.

Son məqam xüsusi ilə ölkədə siyasi qüvvələrin milli maraqlar ətrafında konsalidasiyasının bir nümunəsidir. Bu nümunə daxili və xarici siyasətin biri birini tamamlamasının nəticəsidir. Yeni Azərbaycan Partiyasının VII qurultayında Dövlət Başçısı İlham Əliyevin çıxışında səsləndirdiyi fikirlər xarici və daxili siyasətimizin gələcəkdə də uğurla davam etdiriləcəyinə dair əminlik formalaşdırır. Ilk öncə onu qeyd etməlidir ki, Dövlət Başçısı öz çıxışında tarixi varislik prinsipini diqqətə çatdırmışdır.

O qeyd etmişdir ki, biz tarixi biləliyik, bilirik və bundan sonra öz fəaliyyətimizi bu möhkəm təməl üzərində qurmalıyıq. Dövlət Başçısının sözlərində aşağıdakı həqiqətlər ifadə edilmişdir ki, 1993-2003-cü illər həlledici illər olmuşdur. Dövlətçiliyin əsasları qoyulmuşdur.

Bəli, bu bizim üçün ən önəmli çıxarışlardan biridir. Keçmişlə sağlam bağ qura bilməyən millətlər gələcəyə doğru düzgün addım ata bilməz. Tarixi varislik prinsipi bizim milli inkişafımızın əsas rəhnlərindəndir.

Eyni zamanda Dövlət Başçısı çıxışında bildirmişdir ki, ölkənin gələcəyi elə planlaşdırmalıdır ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın.

Dayanıqlı inkişafın təmin edilməsi istiqamətində ölkəmizdə əhəmiyyətli islahatlar aparılır. Insanların vəzifələndirilməsi zamanı onların layiqlilik dərəcəsi əsas alınır. Gənc kadrların önə çəkilməsi istiqamətində ciddi işlər görülür. Bizim üzərimizə də məsuliyyət düşür. Hər birimiz Prezidentin qeyd etdiyi bu məqamı əsas alaraq dayanıqlı inkişafın təmin edilməsi üçün öz potensialımızı maksimal şəkildə ortaya qoymalıyıq.

Diqqəti cəlb edən digər məqam Dövlət Başçısının çıxışında aşağıdakı şəkildə özünü göstərdi. Döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti 2003-cü ildə Prezident İlham Əliyev hakimiyyətə gələndə uşaq olan insanlardır. Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər.

Buradan hər bir Azərbaycan vətəndaşı, xüsusi ilə dövlət strukturlarında çalışan şəxslər nəticə çıxartmalıdır. Insan kapitalı hər şeydən üstündür. Gələcək nəsillərin Vətənə layiqli bir şəkildə yetişdirilməsi istiqamətində Dövlət Başçısının ortaya qoyduğu əsaslara məsuliyyətlə xidmət etməliyik. Təhsildə, elmdə, siyasətdə gənc nəsillərin tarixi mirasla sağlam birləşməsini təmin etməliyik.

Ölkəmizin inkişafı ilə bağlı söylənilən digər məsələ də milli dialoqla bağlıdır. Bununla bağlı olaraq Cənab Prezident söyləmişdir ki, biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik. Bu prosesə müharibədən əvvəl start verildi və qısa müddət ərzində yaxşı nəticələr əldə olundu. Demək olar ki, bütün partiyalar arasında, - bir siyasi, özünü siyasi qurum adlandıran antimilli şuranı əgər biz istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyil göstərmişlər, bizim təşəbbüsümüzü alqışlamışlar və artıq bu dialoq baş tutub.

Bəli, milli dialoq mühitinin sağlamlaşdırılması istiqamətində də işlərin dərinləşməsi üçün bizim vətəndaşlar olaraq üzərimizə ciddi vəzifələr düşür. Xarici qüvvələrə deyil, milli maraqlara xidmət edən hər bir kəslə Ölkə Başçısının nümunə alaraq sağlam münasibətləri inkişaf etdirməliyik. Çünki bu bizi güclü edən amildir.

Nəhayət, onu da vurğulayaq ki, Dövlət Başçısının çıxışından irəli gələn çıxarışlar onu deməyə əsas verir ki, biz Cənubi Qafqazda sağlam mühitin dərinləşməsi üçün çalışacağıq. Hər hansı isə üçüncü qüvvələrin destruktiv fəaliyyətinə imkan verilməyəcəkdir. Bunun qarşısının alınması üçün iki istiqamətdə ciddi işlər görülür. Daxili siyasətdə xalq-iqtidar birliyi dərinləşən islahatlarla möhkəmlənir. Xarici siyasətdə isə strateji müttəfiqlərin düzgün seçilməsi, tərəfdaşlarla da milli maraqlarımıza uyğun siyasətin müəyyənləşdirilməsi bizi dünyanın aparıcı dövləti sırasında öz mövqeyimizdə sabit edəcəkdir. Çıxın önəmli məqamlarından biri də Zəngəzur məsələsidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir.

Bütün bu işlərin görülməsində avanqard olaraq YAP xüsusi ilə seçilməlidir. Çünki Dövlət Başçısının da qeyd edtiyi kimi Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir. Bu istiqamətlərin tamlığında idrak edilməsi və icrasında iştirak etmək bizim borcumuzdur.

# Ermənilər narahat edən növbəti sürpriz xofu



### Yeni müharibə olacaq, yoxsa..?

Son günlər Ermənistanda Qarabağda növbəti hərbi əməliyyatların başlanacağına dair fikirlər səslənməkdədir. Xüsusilə, Azərbaycan Silahlı Qüvvələrinin növbəti planına əsasən iri miqyaslı, eləcə də bütün növ ordu birləşmələrinin cəlb edildiyi hərbi təlimlərə başlaması qərarı düşmən ölkədəki təlaşı vəziyyəti daha da dərinləşdirib.

Əbəs deyil ki, ötən gün Ermənistanın KİV nümayəndələri ilə söhbətində ölkənin müdafiə nazirinin sabiq müavini Artak Zakaryan yeni müharibə ehtimalını istisna etməyib və o, həmin fikirlərini belə əsaslandırıb ki, əgər Nikol Paşinyanın dövlətin sükanı arxasında bundan sonra da qalacaqsa, xalq isə buna dözəcəksə, onda müharibə dağların arxasında deyil.

### Müdafiə nazirinin sabiq müavini Artak Zakaryan: "Mən müharibənin olacağına demək olar ki, əminəm"

"Özü də Ermənistanın ərazisində, hansı ki, nəticədə Sünik (Zəngəzur) vilayətini itirə bilərik", deyə Zakaryan bildirib. Onun sözlərinə görə, hadisələrin belə davam edəcəyi halda silahlı qüvvələr növbəti müharibənin qaçılmaz olduğunu görürlər. "Mən müharibənin olacağına demək olar ki, əminəm", deyən müdafiə nazirinin sabiq müavini fikirlərini irəli sürüb. Lakin eyni cinahda yer almalarına və anti-Paşinyan koalisiyasında birləşmələrinə rəğmən, digər hərbi-siyasi çevrə təmsilçiləri eyni fikirləri bölüşmürlər.

### "Enaket" analitik informasiya mərkəzinin rəhbəri Tiqran Abramyan: "Böyük faktorların sayı müharibə ehtimalını artıra bilər"

Misal üçün, Ermənistanın "Enaket" analitik informasiya mərkəzinin rəhbəri Tiqran Abramyan hərbi əməliyyatların başlaması ehtimalının cüzi olduğunu bildirib və hətta iddia edib ki, həmin ehtimal yaxın perspektivdə görünmür. O, bütövlükdə həmin ehtimalları üç hissəyə bölüb və fikirlərini fərqli şəkildə izah edib.

Beləliklə, "nəzərə alarsaq ki, hərbi əməliyyatların başlaması mövzusu müxtəlif dairələrdə və müxtəlif rakurslardan müzakirə olunur, bu zaman qısa müşahidələrimi bölüşmək istərdim", bildirən Abramyana görə, ümumilikdə, müharibənin yenidən başlanması faktorunu kənara qoymaq olmaz. "Dərhal deyim ki, yaxın perspektivdə müharibə ehtimalını istisna edirəm. Orta hesabla isə risklər müəyyən dərəcədə artacaq. Uzunmüddətli zaman kəsimində böyük faktorların sayı müharibə ehtimalını artıra bilər", deyən "Enaket"in rəhbəri, əslində, birmənalı cavab verə bilməyib və sübut edib ki, erməni ictimai-siyasi rəyi bütövlükdə qorxu və xof içində çabalayır və hətta belə proqnoz etmək olar ki, onları gözləmədikləri sürprizlər də gözləyə bilər...

**Rövşən RƏSULOV**

# Erməni yazar Sarkisyan haqda: "Bu axmaq başa düşmürmü ki, Ermənistanda qan tökəcək..."



"Bu axmaq başa düşmürmü ki, bunu etməklə Ermənistanda tərəfləri qan tökməyə sövq edir?" Avropa.info xəbər verir ki, bunu erməni yazar Tevos Arşakyan qələmə aldığı yazıda Ermənistan prezidenti Armen Sarkisyan haqqında deyib. Erməni jurnalist, prezident Armen Sarkisyanın baş nazir Nikol Paşinyanın təqdim etdiyi vəsadətləri geri çevirməsindən yazıb.

"Ermənistanda heç kimin müstəqil bir siyasi oyunçu, dövlətin bir simvolu olaraq hesab etmədiyi prezident Armen Sarkisyan daxili siyasi proseslərdə yerin boş olduğunu göstərdi . Söhbət Artak Davtyanın Silahlı Qüvvələri baş qərargahının rəisi təyin edilməsi ilə bağlı Paşinyanın təqdim etdiyi təklifi imzalamaq istəməməsindən gedir. Armen Sarkisyan bu günə qədər ölkədəki bütün ən vacib proseslərə, yumşaq desək, çox passiv şəkildə reaksiya verir, nadir sözlərlə məhdudlaşırdı. Bu səbəbdən də Ermənistanda çoxları Armen Sarkisyana "İngiltərə Kraliçası" deyirdilər.

Və sonra birdən inadkar oldu, əvvəlcə Paşinyanın Onik Qasparyanın istefası üçün verdiyi təklifi imzalamaqdan imtina etdi və indi Artak Davtyanın təyin edilməsi təklifini imzalamaqdan imtina etdi. Bir tərəfdən bu gülünc jestlər - axı, hamımız başa düşürük ki, Paşinyan sonda hətta prezident imzası olmadan qanunlar sayəsində istədiyinə nail olacaq... Bu, Konstitusiyaya edilən düzəlişlərin nəticəsidir, bunlar Serj Sarkisyanın Ermənistanın nominal rəhbəri olmaq təklifi ilə razılaşaraq Sərkisyanın abunə olduğu oyun qaydalarıdır.

Sarkisyanın ona həvalə edilən "toy generalı" və "turist" rolunu qəbul edərək, dünyanı gəzməyi xoşlayırdı. Cəmiyyət Ermənistanda ölkəmizə bir prezident olduğunu belə hiss etmirdi. Qarabağ müharibəsi boyunca Sarkisyan susdu, sonra Ermənistan daxili siyasi kataklizmlərlə sarsılsa da, Londonda koronavirusdan yatırdı. Üstəlik, Ermənistan demək olar ki, vətəndaş müharibəsinə girdi, lakin Sarkisyan bütün bu vaxtları susdu.

İndi isə Armen Sarkisyan birdən-birə özünü bütün Ermənistana göstərməyə qərar verir. Sən kimsən? Ölkədə baş verən ən mühüm hadisələr barədə susdun. Müharibə boyu susdun. Ermənistandakı təhlükəli vəziyyəti birtəhər həll etmək üçün barmağını qaldırmadın. İndi birdən oyununu oynamağa qərar verdin? Bu axmaq başa düşmürmü ki, bunu etməklə yalnız daxili siyasi problemlərin düyününü sıxır, qarşı tərəfləri qan tökməyə sövq edir? Yoxsa bəlkə özü üçün Paşinyanla bazarlıq etmək istəyir?", - deyə erməni jurnalist yazısında qeyd edir.

# ABŞ-ın dövlət katibi erməni terrorçusu ilə bağlı qərardan təəssüfləndi...



ABŞ-ın dövlət katibi Entoni Blinken bəyan edib ki, erməni terrorçusu Hampinq Sasunyanın şərti azad olunması barədə məhkəmənin verdiyi qərarından təəssüf hissi keçirir. SİA Türkiyənin Anadolu agentliyinə istinadən xəbər verir ki, şərti azadlığa çıxan erməni terrorçusu Hampinq





Sasunyan 1982-ci ildə Los-Ancelesdə türk konsulu Kemal Arıkanı qətlə yetirib.

"Birləşmiş Ştatlar hər zaman diplomatların təhlükəsizliyini prioritet məsələ olaraq hesab edib və müvafiq cinayətlər törədənlərə qarşı maksimal sərt cəzaların verilməsini istəyib. Biz şərti azadlıqlara qarşı çıxırıq. Diplomatın ünvanına olan təhlükə nəinki ciddi cinayətdir, həm də bütövlükdə diplomatiyaya qarşı təhlükədir", dövlət katibinin yazılı bəyanatında bildirilir.

Blinken bir daha öldürülmüş türk diplomatının doğmalarına və yaxınlarına, eləcə də Türkiyənin Xarici İşlər Nazirliyinə başsağlığı verib. Bundan öncə isə Türkiyə XİN Los-Anceles Ali məhkəməsinin qərarını mühakimə edərək Kemal Arıkanın erməni qatilinin şərti azadlığa buraxılmasını ittiham edən bəyanat yayıb.

Qeyd edək ki, "Erməni soyqırımı məsələsində ədalət uğrunda mübarizlər" (ESAK) erməni terror təşkilatının üzvü Hampinq Sasunyan etiraz hüququna malik olmadan ömürlük həbsə məhkum olunmuşdu və Kaliforniya ştatının "San-Kventin" həbsxanasında saxlanılırdı.

Kaliforniyanın qanunlarına görə 25 ildən artıq həbsxanada olanlar şərti azadlığa çıxmaq üçün müraciət etmək hüququna malik olurlar. Sasunyan 2007-ci ilin oktyabr ayından hazırkı dövrə qədər dəfələrlə bu hüququndan istifadə etməyə cəhd göstərib.

Yalnız Türkiyə XİN-nin 2006, 2010, 2013 və 2015-ci illərdəki müdaxiləsindən sonra Amerika məhkəməsi terrorçunun müraciətlərini geri çevirib.

2016-cı ilin 14 dekabr tarixində Sasunyanın şərti azadlığa buraxılması üçün müraciəti məhkəmə tərəfindən müsbət cavablandırılıb ki, nəticədə Ankara apellyasiya məhkəməsinə müraciət edib. Bundan sonra Kaliforniyanın qubernatoru Cerri Braun 12 may 2017-ci ildə Sasunyanın müraciətinə müsbət cavab vermiş birinci məhkəmə instansiyasının qərarını ləğv edib.

Erməni terrorçusu daha sonra 6-cı dəfə müraciət ünvanlayıb. 29 iyun 2018-ci ildə, məhkəmənin iclasından əvvəl Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu və ədliyyə naziri Abdulhamit Gül amerikalı həmkarlarına məktubla müraciət ediblər.

2019-cu ilin 25 iyulunda Sasunyanın müraciətinə rədd cavabı verilib və bildirilib ki, o ictimaiyyət üçün təhlükəli qalmaqda davam edir. Kaliforniyanın şərti azadlığa buraxma şurası Sasunyanın növbəti müraciətinə 2012-ci ilin iyununda baxacaq. Qeyd edək ki, rəsmi Bakı da erməni terrorçu-qatilinin barəsində şərti azadlığa buraxılma qərarını pisləyən bəyanatla çıxış edib və həmin qərarın yolverilməz olduğunu bildirib.

Xatırladaq ki, Hampinq Sasunyan və digər erməni terrorçusu Krikor Saliba 1982-ci ilin 28 yanvar tarixində Los-Ancelesdə türk diplomatını öz avtomovilində güllələyiblər. Sasunyan məhkəmənin hökmü ilə ömürlük həbs cəzasına məhkum edilib. Qaçmağa müvəffəq olan Saliba isə elə həmin il Livanda baş verən münaqişə zamanı öldürülüb.

**R. Nurəddinoğlu**

# Tahir Rzayev: "Siyasi dialoq mühiti gücləndirilir"

*"Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev fəaliyyətinin bütün dövrlərində qarşılıqlı münasibətlərin yaxşılaşdırılmasının, sülh və əməkdaşlığın, vətəndaş həmrəyliyinin genişləndirilməsinin, ölkədə siyasi dialoq mühitinin gücləndirilməsinin və siyasi sistemin inkişaf etdirilməsinin tərəfdarı olmuşdur. O, Yeni Azərbaycan Partiyasının VII qurultayında da bu məsələlərə böyük önəm verdi və ölkədəki siyasi partiyaların müharibə günlərində birlik nümayiş etdirdiklərini müsbət qiymətləndirdi." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.*



Komitə sədri xüsusilə vurğulayıb ki, 6 siyasi partiyanın YAP-a qoşulması ölkədəki siyasi dialoq mühitinin ifadəsidir və ölkə rəhbərinin həyata keçirdiyi siyasi islahatların nəticəsi kimi əhəmiyyətlidir.

"Əlbəttə ki, siyasi dialoq mühitinin gücləndirilməsi həm ölkənin demokratik imici, həm vətəndaşların mənafeyi və aşkarlığın təmin olunması, həm də həmrəyliyin bərqərar edilib bir məqsəd uğrunda mübarizənin genişləndirilməsi baxımından çox əhəmiyyətlidir. Prezident Administrasiyasında yeni yaradılan siyasi partiyalar və qanunvericilik ilə iş şöbəsinin fəaliyyəti bu baxımdan uğurludur və az bir vaxta keçirilən çoxsaylı tədbirlər istər siyasi partiyalar, istərsə də ictimaiyyət tərəfdən yaxşı qarşılanmışdır.

Dialoq mühitinin yaxşılaşdırılması sözsüz ki, dövlətin mənafeyinə və milli maraqlara xidmət edir. Milli həmrəyliyimiz üçün bu, önəmlidir, Azərbaycanın demokratik ölkə kimi tanınmasına kömək edir. Belə olan halda ənənələr davam etdirilməli, tədbirlərin sayı artırılmalı, siyasi partiyaların və vətəndaş cəmiyyətlərinin fəallığı yüksəldilməlidir. Bunu Azərbaycanın sürətli inkişafı və dünyaya açıq olması tələb edir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# "Reallıqlar yaradan ölkə"

***Ötən 29 il ərzində ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən Yeni Azərbaycan Partiyası özünün lider partiya və siyasi güc olduğunu bir daha sübut etdi.***



*Abil Ağasəfov*
*Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının sədri*

Yeni Azərbaycan Partiyasının yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 90-cı illərin əvvəllərində yenicə müstəqillik əldə etmiş Azərbaycan hər tərəfdən təzyiq altında idi. O dövrün cəsarətli, qorxmaz insanları açıq-aydın görürdülər ki, yenicə müstəqilliyə qovuşmuş ölkəmiz böyük fəlakətlə üz-üzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter alıb. Hərbi məğlubiyyət, torpaqların işğalı, hakimiyyət uğrunda gedən daxili çəkişmələr böhranla tamamlanırdı. Ölkədə özbaşınalıq, xaos hökm sürürdü. Gücsüz hakimiyyət ölkəni məhvə aparırdı. Belə bir şərait vətənpərvər insanları öz ətrafında birləşdirən partiyanın yaradılmasını zəruri etdi. Faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc dövlətimizin həyatında yeni bir mərhələyə yol açdı. 1993-cü ilin oktyabr ayında isə o vaxt cəsarət və milli düşüncə göstərmiş, baxmayaraq ki, repressiyalara məruz qalmış vətənpərvər qüvvələr- məşhur "91-lər" Naxçıvanda yaşayan Heydər Əliyevə müraciət etdilər. Zamanı üçün bu böyük cəsarət tələb edirdi. Heydər Əliyev xalqın mütləq əksəriyyətinin xahişi və dəstəyi ilə Bakıya gəldi.

1993-2003-cü illər Azərbaycanın ictimai-siyasi həyatında həlledici illər oynamışdır. Məhz bu illərdə dövlətçiliyin əsası qoyuldu. Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı. Ölkə beynəlxalq təcriddən çıxdı. Böyük investisiyalara start verildi. Nizami ordu quruculuğuna başlanıldı. Bu gün ölkəmizin müxtəlif sahələrində öz töhfələrini verən kadrların yetişdirilməsi ilə bağlı önəmli addımlar atıldı. 2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs verdi. Prezident seçilərkən hər bir azərbaycanlının prezidenti olacağına söz vermiş cənab İlham Əliyev doğrudan da 17 il ərzində tarixi uğurlara imza atdı.

Bu dövrdə qarşıya qoyulmuş hədəflərə çatıldı və növbəti hədəflər təyin edildi. Azərbaycanın bütövlükdə inkişafı, əldə etdiyi uğurlar Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin yorulmaz, fədakar fəaliyyəti, onun cəsarəti və eyni zamanda uzaqgörənliyi sayəsində mümkün oldu. Son 17 ildə dayanıqlı əsaslara söykənən xalq-iqtidar birliyi yaradıldı. Ölkə iqtisadiyyatında yüksəliş dövrü başlandı, yeni uğurlar əldə edildi. Azərbaycanın beynəlxalq nüfuzu gücləndi. Vaxtilə Azərbaycana qarşı düşmən münasibətdə olan region ölkələrlə normal qonşuluq əlaqələri yardıldı. Beynəlxalq aləmdə ölkəmiz yüksək milli dəyərləri olan, güclü və müstəqil ölkə kimi tanındı və qəbul olundu. Dövlətimiz qısa bir zaman kəsiyində regionda ən güclü orduya sahib oldu. Qafqazın lider ölkəsinə çevrildi.

Azərbaycan həqiqətləri beynəlxalq aləmdə tanıdıldı. Tarixi ədalət bərqərar olundu, qarşıya qoyulmuş vəzifələr yerinə yetirildi. Lakin torpaqlarımızın işğal altında qalması ilə barışmaq olmazdı. İşğalçı dövləti torpaqlarımızdan qovmaq, onu məhv etmək üçün kifayət qədər gücə malik olan dövlətimiz yenə də münaqişəni dinc yolla həll etmək siyasəti apardı.

Lakin BMT-nin icra edilməmiş dörd qətnaməsi, ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi ərazi bütövlüyümüzün tam bərpa edilməsi istəyini ləngidə bilməzdi. Bütün xalqımız bir yumruq kimi Ali Baş Komandan, Respublika Prezidenti ətrafında sıx birləşdi. Odur ki, 44 günlük II Qarabağ müharibəsi mütləq qələbəni bizə qazandırdı. Düşmən ordusu darmadağın olundu. İşğalçı Ermənistan təslimçilik aktına imza atmağa məcbur edildi. Ərazi bütövlüyümüz bərpa edildi. Bu müharibədə Azərbaycan xalqı birlik, həmrəylik göstərdi.

Bu gün Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən nüfuzlu və böyük iqtidar partiyasıdır. Müstəqil Azərbaycanın daxili və xarici siyasətində, onun ictimai həyatında yüksək rol oynayan bu partiya ölkəmizin həyatında fundamental dəyişikliklər gətirməklə yanaşı, eyni zamanda, siyasi mübarizələrlə dolu şərəfli və çətin yol keçib. Ölkə daxilində və onun sərhədlərindən kənarda baş vermiş hadisələr, bu günün reallıqlarından yeniləşən və müasirləşən partiyanın gələcək fəaliyyətinin tənzimlənməsi üçün günün tələbinə çevrilib.

5 mart 2021-ci ildə Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin zərurəti də məhz bu səbəblərdən doğur. Yeni bir vəziyyət yaranmışdır. Bundan əvvəlki dövrlərdə olkəmizdə reallaşan bir çox layihələr və II Qarabağ müharibəsinin nəticələri bölgəyə yenilik gətirmişdi. Regionda yeni əməkdaşlıq imkanları yaranmışdır. Ölkə daxilində, həm də beynəlxalq aləmdə siyasi konfiqurasiya formalaşıb. İdarəetmə çevik xarakter alıb. Artıq bölgə üçün yeni dövr-siyasi dialoq və tərəfdaşlıq dövrü başlayır. Tarixi baxışdan əgər 2003-2020-ci illər bu böyük siyasi yeniləşməyə hazırlıq dövrü idisə, 2020-ci ildən sonrakı dövr bu vəzifələrin icrası dövrüdür. Bu, müasir dövrün çağırışlarına çevik adaptasiya olunur. Ölkə rəhbərinin düşünülmüş və uzaqgörən siyasəti ilə biz artıq mənəvi və iqtisadi hazırlıq, daxili sabitlik, qlobal əməkdaşlıq və beynəlxalq təşkilatlarla iş, hüquqi baza və ordu hazırlığı hədəflərinə çatmışıq. Məhz bu uğurlar bizə Zəfər qələbəsini yaşatdı, Azərbaycanı regionun lider dövlətinə çevirdi.

Hazırda dövlətimiz üçün yeni bir dövr başlamışdır. Biz artıq həyatın bizə diqtə etdiyini necə icra edəcəyimizi anlayırıq və daha müasir hədəflər müəyyənləşdiririk. Azərbaycan qalib dövlət kimi yoluna davam edir, tarixi missiya uğurla yerinə yetirilir. Çoxtərəfli əməkdaşlıq platforması yaradılır. Ölkə artıq etibarlı nəqliyyat və loqistika mərkəzinə çevrilib. Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq gücləndirilib. Artıq perspektiv və bərabərhüquqlu sazişlərin 90 faizi razılaşdırılıb. Qarşıdakı dövrdə daha böyük uğurlar gözlənilir.

Ölkədə siyasi sistem təkmilləşdirilir. Milli maraqlar siyasi dialoq müstəvisində həllini tapır. Cəmiyyətin yeni konfiqurasiyası formalaşır. Hazırda bütün siyasi qüvvələr dialoqda fəal iştirak edir. XXI əsrin müharibəsini qələbə ilə başa çatdıran Azərbaycan daha müasir ordu yaratmağı hədəfləyir. Ölkəmizi hər an təhdidlər gözləyə bilər. Ona hazır olmalıyıq. Əfsuslar olsun ki, güc hər şeyi həll edir. Güclü olan haqlıdır. Beynəlxalq hüquq işləmədiyi yerdə ancaq güc amili həlledici ola bilər. Sözün gücü onun dövlətinin gücündən asılıdır. Necə ki, 44 günlük müharibə bunu bir daha sübut etdi.

Bizim vətəndaşlarımız dərindən anlamışlar ki, hətta dünya birliyi tərəfindən tanınmış qanuni haqqımızı almaq üçün dövlətin gücünün, xalqın birliyinin, müdrik rəhbərliyin olması mütləq şərtdir. Zəfər savaşının gedişində atılmış hər bir addım, görülmüş hər bir tədbir nəyi nə vaxt və necə edəcəyini yaxşı bilən Ali Baş Komandan tərəfindən dəqiq ölçülüb-biçilmiş və həyata keçirilmişdir. Döyüş əməliyyatlarına ölkəmiz üçün maksimum sərfəli olan şərtlər əsasında da son qoyulması da möhtərəm Prezidentimizin xüsusi siyasi duyumunun və dərin zəkasının, ölkəmizin hər bir vətəndaşına qayğıkeş münasibətinin nəticəsi olmuşdur.

Bu da qeyd edilməlidir ki, ölkəmizin Dağlıq Qarabağ üzərində suverenliyini tanımamaq üçün Təhlükəsizlik Şurasının göstərdiyi cəhd məhz möhtərəm Prezidentimizin həyata keçirdiyi uzaqgörən siyasət və beynəlxalq aləmdə onun böyük nüfuzu sayəsində boşa çıxmışdır. Biz hamımız bu gün böyük qələbənin təsiri altındayıq, döyüş təcrübəsi və təchizatı ilə bir sıra inkişaf etmiş ölkələrin hərbi qurumlarının araşdırma mövzusuna çevrilmiş ordumuzla fəxr edirik. Lakin ölkəmizin güclü iqtisadiyyatı olmasaydı, belə bir ordu qurula bilməzdi. Azad edilmiş ərazilər ölkə iqtisadiyyatının gələcək inkişafına güclü təkan verəcək, həmin ərazilərdə yüksək texnoloji istehsalatların və "ağıllı şəhər və kəndlərin", "yaşıl enerji" layihələrinin icrası barədə cənab Prezidentin planlarının həyata keçirilməsi isə rahat və əlverişli yaşayış şəraitini təmin edəcəkdir.

Bu gün biz qürur duyuruq ki, ölkəmizin və xalqımızın bütün möhtəşəm xariqələrində Yeni Azərbaycan Partiyası həmişə cənab Prezidentin yanında olmuşdur. Artıq uzun müddətdir ki, Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir və ölkənin aparıcı siyasi qüvvəsi kimi öz qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirir.

Amma sirr deyil ki, hələ ölkədə bir qrup azğın insan da var və onların niyyəti görülən bütün işlərə qara yaxmaq, ölkədəki ab-havanı sarsıtmaqdır. Adlarını müxalifət qoyan bu insanlar cürbəcür uydurmalar yayır, təhqiramiz ifadələrə yol verirlər. Əslində, onlar ölkədə həyata keçirilən siyasətə qarşı deyil, dövlətimizə qarşı çıxış edirlər. Sağlam düşüncəli hər bir Azərbaycan vətəndaşı, xüsusən gənclər bu cür hallarla qəti mübarizə aparmalıdır. Mətbuatda və sosial şəbəkələrdə həqiqətə uyğun olmayan təhqiramiz yazılara dərhal barışmaz münasibət bildirməlidirlər. Çoxmillətli Azərbaycan xalqı təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan yeni dövlət qurub. Heydər Əliyevin yaratdığı partiya müxalifət partiyasından xalqın lider partiyasına çevrilib, öz sıralarında müxtəlif təbəqələri və müxtəlif millətlərdən olan partiya üzvlərini birləşdirərək respublikamızın ictimai-siyasi həyatında sabitləşdirici amilə çevrilib.

Əminəm ki, bir neçə partiyanın Yeni Azərbaycan Partiyası ilə birləşməsi partiyamızı gücləndirəcək. Bizdə iqtidarın siyasəti xalq tərəfindən məhz ona görə dəstəklənir ki, iqtidarın siyasəti xalqın maraqlarını güdür. Harada ki, xalqın maraqları ön plandadır, o ölkələrdə nəsildən-nəslə keçən ənənələr yaşayır və biz bu ənənələri yaşatmalıyıq.

Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olmuşuq. İndi bizim amalımız dövlət başçısının elan etdiyi milli prioritetlərdə yeni hədəflərdir. Biz əminik ki, dövlətimiz və xalqımız bu hədəflərə də inamla çatacaq.

## Rudenko: Ermənistandakı vəziyyət bu ölkənin daxili işidir



Ermənistandakı vəziyyət bu ölkənin daxili işidir, Rusiya oradakı vəziyyətin ən qısa zamanda normallaşmasında maraqlıdır. "TASS" xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko deyib. "Biz, bunu Ermənistanın daxili işi kimi qiymətləndiririk. Orada baş verən proseslərə qarışmırıq və tərəf tutmuruq. Vəziyyətin hər kəsə fayda gətirən şəkildə normallaşmasını istəyirik", - XİN rəhbərinin müavini əlavə edib. Rudenko, Dağlıq Qarabağdakı vəziyyətin gərginləşməyəcəyinə ümid etdiyini söyləyib: "Ümid edirik ki, bu, baş verməyəcək".

## Ekspert: Sənədsiz evlərin rəsmiləşdirilməsi evlərin qiymətlərini bahalaşdıracaq



Bir neçə il öncə inventarlaşdırılmasına başlanılan qeydiyyatsız evlərin rəsmiləşdirilməsi fərdi yaşayış evlərinin qiymətinin bahalaşmasına səbəb olacaq. Bunu Trend-ə əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı deyib.

R.Osmanlı bildirib ki, məlumatlara görə paytaxt və regionlarda təqribən 250 mindən çox fərdi yaşayış evi artıq inventarlaşdırılıb: "İnventarlaşma prosesi davam edir və nə vaxt yekunlaşacağı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı deyə bilər. Amma hesab edirəm ki, bu prosesi ilin sonuna qədər yekunlaşdırmaq mümkündür".

R.Osmanov qeyd edib ki, bu gün yarım milyondan artıq tikili faktiki olaraq bütün sərəncam hüquqlarından, digər məsələlərdən kənarda qalır, yəni onlar üzərində aparılan əməliyyatlar, o cümlədən alqı-satqı əməliyyatları faktiki olaraq qeydiyyata alınmır: "Bu baxımdan həmin evlərin rəsimləşdirilməsi qiymət artımına səbəb olacaq çünki sənədsiz evlə sənədli evin arasında qiymət fərqləri var. Sənədsiz evlər daha ucuz qiymətə satılır, ancaq o evlər sənədləşdirildikdən sonra ucuz qiymətə satılmayacaq".

***İqtisadiyyat naziri Mikayıl Cabbarov bu ayın əvvəlində “Facebook” sosial şəbəkəsindəki hesabında bildirib ki, Azərbaycan biznesi koronavirus (COVID-19) pandemiyasından sonrakı bərpa dövrünə daxil olur.”İlin 2 ayının yekunları ürəkaçandır. İlkin məlumata əsasən, vergi daxilolmaları proqnoza nisbətən 118,7 faiz icra olunub. Qeyri-neft-qaz sektorundan əlavə daxilolmalar 84,7 milyon manat təşkil edib”, - nazir qeyd edib.***

# Kölgə iqtisadiyyatı ilə mübarizə: Büdcə gəlirləri artsa da...



“İki sahil”in məlumatına görə, Dövlət Statistika Komitəsi isə bəyan edib ki, yanvar-fevral aylarında ölkədə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,2 faiz az ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 7,5 faiz, qeyri neft-qaz sektorunda isə 0,4 faiz azalıb. Yanvarda isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,5 faiz az ümumi daxili məhsul istehsal olunmuşdu. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 6,2 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 0,1 faiz artmışdı. Maraqlıdır, ümumi daxili məhsul istehsalı azaldığı halda vergidaxilolmaları necə artıb?

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayındakı nitqində bildirib ki, bu ilin iki ayında dövlət büdcəsinin gəlirlərində proqnozdan əlavə təqribən 200, ya 300 milyon artım olduğuna, bu göstəricinin böyük hissəsinin vergi orqanlarının, bir hissəsinin də gömrük orqanlarının hesabına olmasına diqqəti çəkərək bunun vergitutma bazasının genişləndirilməsi, biznesin kölgədən çıxmasından irəli gəldiyini vurğulayıb: “Sahibkarlara düzgün istiqamət verilir. Davranış qaydaları müəyyəndir. Bunu camaat da görür, sahibkarlar da görür. Beləliklə, hətta böhranlı pandemiya dövründə biz maliyyə baxımdan çox özümüzü rahat hiss edirik, büdcənin icrası ilə heç bir problem görmürük”.

Dövlət Gömrük Komitəsi cari ilin yanvar-fevral ayları üzrə nəzərdə tutulan büdcə öhdəliyinə 115,09 faiz əməl edərək nəzərdə tutulan proqnozdan əlavə 77,74 milyon manat gömrük ödənişi toplayaraq dövlət büdcəsinə köçürüb.

Biznesin kölgədən çıxması özünü dövlət sosial sığorta ödənişləri üzrə daxilolmalarda da göstərməkdədir. M.Cabbarov sosial şəbəkə hesabında yazıb ki, cari ilin iki ayında məcburi dövlət sosial sığorta ödənişləri üzrə daxilolmalar əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,8 faiz artıb, proqnozdan əlavə daxilolma 65,4 milyon manat təşkil edib. ÜDM-də azalmanın olmasını nəzərə alanda, bunun qeyri-formal məşğulluqla mübarizədən irəli gəldiyi aydın olur.

Dövlət Statistika Komitəsinin digər məlumatına görə, yanvar ayında ötən ilin eyni ayı ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 1,4 faiz, o cümlədən qeyri-ərzaq malları üzrə 4,8 faiz azalıb, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 1,8 faiz artsa da, eyni ayda inflyasiya 3,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 4,6 faiz, qeyri-ərzaq məhsulları üzrə 3,5 faiz təşkil edib.

# Azərbaycanın ictimai-siyasi həyatında növbəti tarixi hadisə - YAP-ın VII qurultayı



MUXTAR NAĞIYEV,
YAP Səbail rayon təşkilatının sədrinin müavini

***Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, müstəqil Azərbaycanımızın firavan gələcəyinin dünəni, bu günü və gələcəyi naminə öz fəaliyyətini göstərən siyasi partiyadır. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: “Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır”.***

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlər toxunaraq partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: “Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir”.

Bəli, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu, son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: “Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”.

Prezident İlham Əliyev keçirilən qurultayda da bildirib ki, Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. “Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi”,-deyən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlərin önəmli olduğunun söyləyib: “Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Heydər Əliyevin fəaliyyətinin nəticəsində 1982-ci ildə isə qabaqcıl yerlərdə idi. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi. O vaxt onun gördüyü işlər həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələrini böyük dərəcədə inkişaf etdirdi, canlandırdı və insanlar o dövrü xatırlayırlar. Bir də ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır”.

Prezident İlham Əliyev onu da bildirdi ki, son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq: “Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq”.

Prezident, YAP-ın Sədri İlham Əliyev qurultayda geniş, dərin məzmunlu və proqram xarakterli çıxışı zamanı əldə edilən uğurları, aparılan hərtərəfli islahatlardan danışaraq, gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi. Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bildirən Prezident İlham Əliyev son 3 il ərzində həyata keçirilən mütərəqqi işləri yüksək qiymətləndirərək partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi: “Bu gün sıralarında 760 580 insanı birləşdirən YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət göz önündədir. Gələn il yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Prezidentin də söylədiyi kimi, YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyanın böyük ənənələri var”.

Bir sözlə, Yeni Azəbaycan partiyasının VII qurultayda xeyli yeniliklər baş verdi. Ona görə də deyə bilərik ki, partiya yeniləşmiş formatda daha fəal olacaq. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın rəhbər orqanlarında yeni təmsil olunanlar qarşısında tələblər də qoydu. Bildirdi ki, onlar partiyanın bundan sonra da ölkənin aparıcı siyasi qüvvəsi olaraq qalması üçün fəal olmalı, partiyanın fəaliyyətində mühüm rol oynamalı, ümumi işlərə töhfə verməlidirlər.

# Ən böyük risk: Siqaret!



Dünya Səhiyyə Təşkilatına görə, bu gün dünyada 600 milyon “Koah” xəstəsi var. Hər il 50 milyon insan bu xəstəliyə tutulursa, bunlardan 3 milyonu bu səbəbdən ölür. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, sinə xəstəlikləri mütəxəssisi prof.dr. Yalçın Karakoca mövzu ilə bağlı məlumat verib. Onun sözlərinə görə, “Koah” ölümcül olan 3-cü xəstəlikdir: “Koah” ağciyərdəki hüceyrələrə ziyan vurur və dönüşü olmadıqda ağciyərdəki hüceyrələr sıradan çıxır. Sirkə, evdə hazırlanan qatıq, turşu və şalqam suyu kimi probiyotiklər bağırsaqlarda yaxşı flora mənbəyidir. Onların istifadəsi allergik xəstəliklərin müalicəsində də çox faydalıdır.

Xalq dilində xroniki bronxit olaraq bilinən “Koah”, ağciyərlərdə hava yollarının daralması səbəbi ilə tənəffüs zamanı hava axınının məhdudlaşması ilə xarakterizə olunan xroniki bir xəstəlikdir. “Koah” tənəffüs yollarında tütün tüstüsü, zərərli qazlar və hissəciklər, mikrobial olmayan iltihab səbəbi ilə inkişaf edən xəstəlikdir. Bu iltihab səbəbi ilə tənəffüs yolları getdikcə daralır, ağciyər toxumasındakı hava kisələrində böyümələr baş verir.

“Koah” xəstəsi olan hər 10 nəfərdən yalnız biri xəstəlikdən xəbərdardır. Orta hesabla “Koah” simptomları 50 yaşına qədər hiss olunmaya bilər. Bunun əsas səbəbi, insanın “Koah” simptomlarından xəbərdar olmaması və ya bunu siqaretlə əlaqələndirməsidir. Xroniki öskürək və bəlğəm xəstəliyin ilk göstəricisidir. Bu simptomlar çox vaxt gözardı edilsə də, xəstəlik şiddətlənəndə pasient həkimə müraciət edir.

Ən böyük risk: Siqaret

“Koah”ın artmasının ən vacib səbəbi aktiv şəkildə siqaret çəkmək və ya tütün istifadəsidir. Bundan əlavə, ətraf mühit və genetik faktorlar da xəstəliyin inkişafında çox təsirli olur. Ətraf mühit faktorları və ya müxtəlif qazlara və tozlara məruz qalma da “Koah” inkişafı üçün risk faktorlarıdır. İrsi “alfa-1” antitripsin çatışmazlığı bilinən ən əhəmiyyətli genetik risk faktorudur; bu vəziyyət ölkəmizdə nadirdir.

***Ayşən Sadıxzadə***

# Partiyaların birləşməsi modeli nə vəd edir?

*YAP artıq bu xüsusda atılan ilk addımı dəstəkləyib*

***Yeni Azərbaycan Partiyasının (YAP) martın 5-də keçirilən qurultayında qəbul edilən qərarlar, struktur yenilikləri və fəaliyyət istiqamətindəki yeniliklərə start verməsi siyasi gündəmdə maraqla izlənilməkdədir. Xüsusilə, altı siyasi partiyanın hakim partiyaya birləşməsi faktı növbəti sualı yaradır - digər siyasi təşkilatlar da YAP-a birləşmək imkanlarını reallaşdıra bilərlərmi? Belə ki, YAP ölkənin ən çoxsaylı və aktiv fəaliyyət göstərən siyasi partiyası olaraq, eyni zamanda, dövlətin apardığı siyasətdə fəal iştirakçıdır.***



Partiyanın istər veteran təmsilçiləri, istərsə də gəncləri mediada, sosial şəbəkələrdə dövlət siyasətinin dəstəklənməsi istiqamətində əməli işlərini aparmaqdadırlar. Həmçinin, YAP-a birləşən digər siyasi partiyalar da bundan sonra həmin istiqamətdəki iş potensiallarını daha da artırmaq imkanını əldə ediblər. Ümumiyyətlə, yaxın gələcəkdə daha bir neçə partiyaların hakim partiya ilə birləşməsi mümkünlüyü reallaşa bilər.

### Fərəc Quliyev: "Cəmiyyətdə birgə nizamnamələri olan partiyalar var ki, onların birləşməsi mümkündür"

SİA xəbər verir ki, Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri Fərəc Quliyev partiyaların birləşməsi məsələsinə münasibətini açıqlayıb. O, bu prosesə normal baxdığını deməklə yanaşı qeyd edib ki, oxşar ideologiyası olan siyasi təşkilatların bir araya gəlməsi mümkündür. Belə ki, xalqın, dövlətin marağında olan, eləcə də ümummilli məsələlərdə birmənalı vahid mövqedən çıxış etmək lazımdır. Çünki müharibədən əvvəl partiyaların bir mövqedən çıxış etməsi, iqtidarla müxalifətin birgə davranışı bunu göstərdi. "Cəmiyyətdə birgə nizamnamələri olan partiyalar var ki, onların birləşməsi mümkündür", deyə MDHP-nin sədri bildirib.

Fərəc Quliyev sədri olduğu partiyasının YAP-la birləşməsi mümkünlüyü barədə düşünmədiyini desə də bənzər təkliflər olarsa, digər partiyalarla razılaşdırıla biləcəyini də istisna etməyib. "Bizim partiya ilə oxşarlığı olan qurumlar var. Müraciətlər olarsa, birləşmə ilə bağlı müzakirələr gedə bilər", deyən Fərəc Quliyev MDHP-nin blok siyasəti yürütmədiyini də diqqətə çatdırıb: "Onu da deyim ki, biz blok siyasəti yürütmürük. Çünki müşahidə etdik ki, müəyyən dövrlərdə yaradılan blokların, birliklərin bir-birinə qarşı sonradan kampaniyaları başladı. Həm də onu gördük ki, blokların tərkibində olan partiyaların yanlışları olur və sən də bu yanlışlığı istər-istəməz daşıyırsan. Amma milli məsələlərdə bir yerdə hər an olmaq mümkündür".

### MDHP-nin sədri: "Bu, YAP-ın uğurudur"

Ancaq buna baxmayaraq, iqtidar partiyasına birləşənlərin qərarlarına müsbət baxdığını deyən Fərəc Quliyev həmin faktı YAP-ın uğuru olaraq qiymətləndirib: "İqtidar partiyasına birləşənlərin qərarına müsbət baxıram. Hesab edirəm ki, bu, hakim partiyanın uğurudur. Orada kadrların yenilənməsi, YAP-a yeni nəfəsin gəlməsi baxımından da əhəmiyyətlidir. Amerika modeli var. Deyək ki, iki aparıcı partiya var və onlar ölkənin taleyini həll edirlər".

MDHP-nin sədri daha bir məqama da toxunaraq bildirib ki, ölkənin müxalifət partiyaları arasında durğunluq və fəaliyyətsizlik nəzərə çarpır və bu baxımdan, həmin düşərgədə də yeniləşməyə ehtiyac yaranıb.

"Düşünürəm ki, Azərbaycanda müxalifət düşərgəsində təmərküzləşmə gedəcəkdir. Bu, işin xeyrinə olar", bildirən müxalifətçi partiya sədri deyib ki, əgər gələcəkdə hansısa partiyalar birləşəcəksə, bunu sadəcə alqışlayacaq. Lakin onun rəhbəri olduğu siyasi təşkilatın hələ ki, birləşmə siyasətini həyata keçirmək planı yoxdur. "Amma bizim hələlik heç bir partiya ilə birləşmək kimi düşüncəmiz yoxdur. Bu heç müzakirə mövzusu da deyil. Bizim düşüncəmiz Azərbaycan mərkəzli türk düşüncə sistemidir. Bütöv Azərbaycançı və Turançıyıq. Bu xəttə uyğun təşkilatlar olacaqsa, müzakirələr apara bilərik. Amma hələ ki, belə bir müraciət yoxdur", MDHP-nin sədri bildirib.

**R.RƏSULOV**

# Ramiz Şabanov: "Zərurətdən yaranan YAP tarixi missiyalarını ləyaqətlə yerinə yetirir"

"Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən, keçdiyi 29 ilə yaxın şərəfli yolda Azərbaycanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirildiyi zamana diqqət yetirsək, bir daha bu reallığı böyük inam və qürur hissi ilə qeyd edə bilərik ki, Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəsinin yaratdığı yeni reallıqlar bütün sahələrdə, o cümlədən siyasi sistemin təkmilləşdirilməsində yeni mərhələyə yol açıb". Bu fikirləri SİA-ya açıqlamasında YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov bildirib.



R.Şabanov qeyd edib ki, yarandığı vaxtdan qısa müddət ərzində ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına əsaslanaraq çox böyük, zəngin və şərəfli yol keçib: "YAP ictimai-siyasi zərurətdən yaranan ümumxalq partiyasıdır. 1990-cı illərin əvvəlində ölkəmizdə hökm sürən xaos, anarxiya və hərcmərclik Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşməsinə səbəb olmuşdu. Hakimiyyətdə olan səriştəsiz qüvvələr ölkəni dərin siyasi böhrandan xilas etmək iqtidarında deyildi. Bunun fonunda ölkəmizin üzləşdiyi siyasi, iqtisadi böhran və tənəzzül meyilləri, həmçinin mənəvi-ideoloji kataklizmlər Yeni Azərbaycan Partiyasının yaranmasını zəruri etdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi".

R.Şabanov qeyd edib ki, yarandığı gündən YAP-ın Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiyamız bu 29 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərib, çox mühüm nailiyyətlər əldə edib: "Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yoluna malikdir. Səmərəli fəaliyyətin və yüksək siyasi nüfuzunun qanunauyğun nəticəsi kimi ümumxalq partiyasına çevrilən, Prezident, YAP-ın Sədri İlham Əliyev cənabları VII qurultayda geniş, dərin məzmunlu və proqram xarakterli çıxış edərək əldə edilən uğurları, aparılan hərtərəfli islahatları dəyərləndirdi və gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi. Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bildirən dövlət başçımız öncə son 3 il ərzində həyata keçirilən mütərəqqi işləri yüksək qiymətləndirərək partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi. Qeyd etdi ki, bu gün sıralarında 760 580 insanı birləşdirən YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət göz önündədir. Gələn il yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Prezidentin də söylədiyi kimi, YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır".

R.Şabanov onu da söylədi ki, partiyanın böyük ənənələri var. VII qurultayda xeyli yeniliklər baş verdi: "Ona görə də deyə bilərik ki, Yeni Azərbaycan Partiyası yeniləşmiş formatda bundan sonra da daha fəal olacaq, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi "Gələcəyin partiyası olmaq" missiyasını əzmlə davam etdirəcək".

**RƏFİQƏ HÜSEYNOVA**

## YAP Astara rayon təşkilatının nümayəndələri şəhid ailəsini ziyarət ediblər



Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının nümayəndələri Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Astara rayonu Səncərədi kəndində anadan olmuş Qeybiyev Arif İsmayıl oğlunun ailəsini ziyarət ediblər. Görüş zamanı YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov bildirib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə hər zaman qayğı göstərmək diqqət mərkəzindədir. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Astara rayonunda da şəhid və qazi ailələri mütəmadi olaraq ziyarət edilir, mövcud problemlərinin aradan qaldırılması üçün tədbirlər görülür.

Şəhid və qazi ailələrinə hər zaman baş çəkildikdə onlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı cənab Prezident İlham Əliyevə təşəkkürlərini bildirirlər.

**Rəfiqə**

## Hafiz Hacıyev: "Bəxtiyar Hacıyev Ramiz Mehdiyevin tapşırıqlarını icra edir"



Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev əmisi nəvəsi olan ictimi fəal Bəxtiyar Hacıyevin Nərmin Şahmarzadə və digər aktivistlərlə mesajlaşmalarının yayılmasından danışıb. Belə ki, Hafiz Hacıyev Demokrat.az-a açıqlamasında bildirib ki, Bəxtiyar Hacıyev nəslin adına ləkə gətirən fəaliyyətlə məşğul olur: "Əgər həmin əxlaqsız yazışmalar Bəxtiyar Hacıyevə məxsusdursa, o zaman bu şəxs nəslimizin başını yerə soxub. Çox təəssüf edirəm ki, Bəxtiyar Hacıyev o soyadı daşıyır. Bizim nəsil çox böyükdür, təqribən yarım milyona yaxındır. İndi Hacıyev nəslindən olan bir adamın gedib o cür əxlaqsız qruplara qoşulmasına görə şəxsən mən özümə nifrət edirəm. Arada özümə sual verirəm ki, axı niyə Hacıyev nəslindən bu cür mənəviyyatsız insanlar ortaya çıxır? İnsan ac, pulsuz ola bilər. Bu gün mən də kasıbam, dişimi düzəltdirməyə belə pul tapa bilmirəm, ancaq öz əqidəmdən əsla dönmürəm, İlham Əliyevin yoluna sadiqəm". Hafiz Hacıyev iddia edir ki, qohumu Bəxtiyar Hacıyev AMEA-nın prezidenti Ramiz Mehdiyev tərəfindən himayə olunur:

"Ramiz Mehdiyev hər ay Bəxtiyar Hacıyevə pul göndərir, ona şəhərin mərkəzində bahalı ofis verib. Əvəzində isə Bəxtiyar Hacıyev Ramiz Mehdiyevin tapşırıqlarını icra edir. İndi tez-tez Harvardın məzunlarını misal çəkirlər. Ancaq biz Harvardı bitirib vəzifəyə qoyulanları da gördük. Onlar da özlərini doğrultmadılar. Bəxtiyar Hacıyev kimi bir qrup var, gedib Harvardın saxta diplomunu əldə edib, sonra gedib əxlaqsız işlərlə məşğul olurlar. Yəni, haranın məzunu olmağın heç bir əhəmiyyəti yoxdur, əsas adam olmalısan. Biz heç zaman imkan vermərik ki, bu cür adamlar dövlətçiliyi, milli dəyərləri dağıtsınlar". Sözügedən ittihamlarla bağlı Bəxtiyar Hacıyev isə danışmaq istəmədiyini bildirib.

# Paşinyan Kremlə lazımdır








## İqor Korotçenko: "Revanş isə dünyanın siyasi xəritəsindən silinmək üçün dalana aparan yoldur"

Regionu Ermənistanın İrəvandakı revanşist güclərinin çağırışlarına əsasında Azərbaycana qarşı aqressiyasından qorunması üçün ən yaxşı vasitə Nikol Paşinyanın erməni dövlətinin rəhbəri postunda saxlanılmasıdır. SİA xəbər verir ki, bunu "Vestnik Kafkaza"ya "Milli müdafiə" jurnalının baş redaktoru, hərbi-siyasi ekspert İqor Korotçenko Cənubi Qafqazda sülhə zəmanət mövzusuna aydınlıq gətirərkən, eləcə də Ermənistanda müxalifətin hakimiyyəti ələ keçirmək cəhdi barədə danışarkən deyib.

Rusiyalı ekspert Nikol Paşinyanla Ermənistanın Baş qərargahı arasında yaranmış münaqişənin də de-fakto başa çatdığını xatırladaraq bildirib ki, müxalifət məhz Baş qərargahın əli ilə ordunu ayağa qaldıraraq hərbi çevriliş etməyə çalışırdı.

## Ordu son iki həftədə iqtidara qarşı heç bir fəaliyyət göstərmədi

O, Paşinyanın baş verənlərin ardınca ordu komandanlığı ilə görüşünü, eləcə də yeni Baş qərargah rəisi - Artak Davtyanı təqdim etməsini də xatırladaraq bildirib ki, başlarında Qarabağ klanının təmsilçiləri və "müharibə partiyalarının" liderləri adlandırılan Robert Koçaryanla Serj Sarqsyanın dayandığı qisasçı qüvvələr prezident Armen Sarkisyanı satqın adlandırmağa da tələsiblər. Belə ki, ordu son iki həftədə iqtidara qarşı heç bir fəaliyyət göstərmədi.

Sözügedən mərhələdə Ermənistandakı daxili siyasi böhrana, yeni müxalifətin uğursuzluğuna səbəb olan məsələyə International Republic Institute tərəfindən keçirilən sorğu da demək olar ki, nöqtə qoymuş oldu. Sorğuya əsasən, potensial parlament seçkilərində iştirak edəcək 75% sorğu iştirakçıları hakim "Mənim addımım"a səs verəcəklərini bildiriblər. İqor Korotçenko bununla bağlı digər bir tərəfə də diqqət çəkərək bildirib ki, revanşist güclər iqtidar uğrunda savaşlarında həm zaman, həm də mübarizə potensiallarını itiriblər.



## İndi əminliklə demək olar ki, etirazlar başa çatmağa doğru gedir

"Ermənistanda qisas güclərinin hakimiyyətə yiyələnməsi artıq kifayət qədər azehtimallı ssenariyə söykənir. Onlar tərəfindən Nikol Paşinyanı devirmək üçün demək olar ki, bütün siyasi və maliyyə təsirləri tətbiq olunub. Onlar eyni zamanda ən əsas arqumentlərini - güc yolunu, yəni erməni ordusunun Baş qərargahını irəli sürdülər, Paşinyan isə hakimiyyətini saxladı. Artıq indi əminliklə demək olar ki, etirazlar başa çatmağa doğru gedir. Praktiki nöqteyi-nəzərdən respublikda da qisasçı güclərin iqtidara yiyələnmək cəhdləri görünmür, ehtimalı isə çox azdır, hətta azdan da azdır", deyə rusiyalı hərbi-siyasi şərhçi bildirib.




## Bu, şəxsən Kremlə tərəf çağırışdır

Korotçenko revanşistlərin hətta hakimiyyətə gələcəkləri halda verdikləri vədlərini - Azərbaycana qarşı yeni müharibə başladacaqlar sözlərini yerinə yetirə bilməyəcəklərini deyib. "Hətta texniki baş nazir qismində özünün piarını aparan Vazgen Manukyan teoretik olaraq növbədənkənar parlament seçkilərinin keçiriləcəyini, nəticədə Ermənistana rəhbərlik edəcəyini iddia olaraq irəli sürsə belə, o, daha sonra nə edəcək? Çünki Paşinyan deyil, məhz Ermənistan, özü də Rusiya qarşısında üçtərəfli Bəyanatın yerinə yetiriləcəyi ilə bağlı üzərinə öhdəlik götürüb və onun pozulmasına yönəlmiş istənilən cəhdlər bu sənədi sual altında qoyacaq - bu, şəxsən Kremlə tərəf çağırışdır. Düşünürəm ki, hətta ən axmaq revanşist bilməlidir ki, Rusiyanın siyasətinə qarşı çıxmaq nə qədər böyük problemlər qazanmaq anlamını daşıyır, ekspert qeyd edib.

## Rusiya İrəvandakı hadisələrlə bağlı neytral mövqe nümayiş etdirir

"Milli müdafiə" jurnalının baş redaktoru hesab edir ki, Paşinyanın hakimiyyətdə qalması variantı birmənalı olaraq hər kəsi, o cümlədən Moskvanı da qane edir. SİTAT: "Biz çox gözəl bilirik ki, Paşinyan kimdir, onun qiymətini də bilirik, anlayırıq ki, onu kim hakimiyyətə gətirib və arxasında da kimlər dayanır. Buna baxmayaraq, vəziyyət belə alınıb ki, minimum bu il mümkündür ki, növbəti il Paşinyan baş nazir olaraq qalmalı və 9 noyabr (10 noyabr) -11 yanvar üçtərəfli Bəyanatlarının Ermənistan tərəfindən icrasını təmin etməlidir. Əgər Paşinyan Moskvanı qane etməsəydi biz Rusiya tərəfindən onun ünvanına səslənən dəstəkləri eşidə bilməzdik, o çoxdan İrəvanda olmazdı. Rusiya hazırda İrəvandakı hadisələrlə bağlı neytral mövqe nümayiş etdirir, bəyan edir ki, bu, erməni xalqının daxili işidir, Rusiya nə Paşinyanın tərəfindədir, nə də ona qarşıdır, ona görə də onun çevrilməsi cəhdində də iştirakçıya çevrilməyəcək".

"Erməni müxalifəti və generaliteti Paşinyanı devirə bilmədilər, onlarda alınmadı, ona görə də o yerində qalır və Ermənistan üçtərəfli Bəyanatların realizə olunmasını üzərinə düşən öhdəlikləri ilə davam etdirir - bu, Ermənistan üçün dövlətçiliyini qorumaq, xalqının yaşamını yaxşılaşdırmaq üçün bir şansdır. Revanş isə dünyanın siyasi xəritəsindən silinmək üçün dalana aparan yoldur", İqor Korotçenko bildirib.

*Rövşən RƏSULOV*

# Özləri kimi, ağılları da icarəyə götürülən antimillilər

*Günümüzün aktual mövzusu olan Yeni Azərbaycan Partiyasının (YAP) VII qurultayı ilə bağlı siyasətçilərin rəyləri, politoloqların araşdırmaları, fikirləri bir məqamda eyniləşir: İqtidar patiyası yarandığı gündən Nizamnaməsində qeyd olunan dövlətçilik və xalq naminə çalışmaq prinsiplərinə sadiq qalmaqla daim inkişaf edir, sıraları Vətənə bağlı, əqidəsinə sadiq insanlar hesabına möhkəmlənir, gəncləşir. İqtidar partiyası məşhur "Siyasət imkanlar daxilində mümkün olanı etmək sənətidir" kəlamına uyğun fəaliyyət göstərməklə bütün qüvvə və bacarığını bir amal naminə birləşdirir.*




Azərbaycan xalqının istək və arzularına müvafiq formalaşdırır. Ölkəmizdə keçirilən bütün prezident, parlament, bələdiyyə seçkilərində opponentlərinə qalib gələrək seçicilərin əksəriyyətinin etimadını qazanan, vahid amal uğrunda mübarizə aparan bu partiyaya ümumxalq etimadı səbəbsiz deyil. Azərbaycan cəmiyyətində siyasi mədəniyyəti ilə seçilən, demokratiyaya, plüralizmə sadiqliyini fəaliyyəti ilə bildirən, əməkdaşlığa açıq olan bu partiyanın təməl prinsiplərini təşkil edən həmrəylik və birlik çağırışları ictimaiyyət tərəfindən dəstəklənir, üzvləri kimi, tərəfdaşlarının da sayı artır. YAP-ı fərqləndirən başqa bir cəhət isə partiyanın ölkədə fəaliyyət göstərən və əqidəsindən asılı olmayaraq bütün siyasi təşkilatları dialoqa dəvət etmək mədəniyyəti, maliyyə məsələləri ilə bağlı hesabatlarını şəffaf şəkildə açıqlamasıdır.

Ölkəmizdə bir neçə il bundan əvvəl başlayan və cəmiyyətin bütün sahələrini əhatə edən islahatlar xalq tərəfindən razılıqla qarşılanır. Prezident, YAP-ın Sədri İlham Əliyevin partiyanın VII qurultayındakı dərin məzmunlu, əhatəli və hədəfə düzgün istiqamətlənmiş çıxışını siyasi islahatların başlanğıcı adlandırmaq olar. Partiyanın keçdiyi şanlı və məsuliyyətli yolda qazandığı uğurlardan ətraflı bəhs edən, liderliyə xas inkarolunmaz qanunlardan irəli gələn xüsusiyyətləri şəxsiyyətində birləşdirən, müdriklərdən ərmağan qalan insanları qiymətləndirmə dəyərində də yüksək pillədə yer alan cənab İlham Əliyev dövlət başçısı, siyasi rəhbər kimi də bu kəlama layiq olduğunu fəaliyyəti ilə təsdiqləyir: "Orta səviyyəli lider danışır, yaxşı lider izah edir, güclü lider nümayiş etdirir, dahi lider ruhlandırır." Prezident İlham Əliyev cəmiyyəti yeniliyə, gələcəyə ruhlandıran lider olduğunu ötən 17 ildə davam etdirdiyi siyasəti ilə təsdiqləyir. Dövlətçilik təcrübəsini, idarəetmə, bacarığını, yenilikçilik səriştəsini, müasirlik həvəsini konseptual siyasəti ilə doğruldan, xalqın etimadını qazanan cənab İlham Əliyev siyasi mədəniyyəti, başqalarına səmimi yanaşma tərzi, xalq, dövlət naminə fədakarlığı ilə fərqlənir. Qurultaydakı nitqi ilə iqtidar-müxalifət anlayışını tarixi faktlar əsasında, hadisələri xatırlatmaqla və vətəndaşlıq məsuliyyəti ilə diqqətə çatdıran Prezident İlham Əliyev ölkəmizdə demokratik mühitin, siyasi plüralizmin mövcudluğunu da göstərdi.

Müstəqilliyimizin ilk illərində ölkədə yaranan gərginlik və qarışıqlıqdan şəxsi mənafeləri naminə istifadə edərək Azərbaycanda xaos yaradan AXC-Müsavat cütlüyünün səriştəsizliyindən söz açan Prezident İlham Əliyevin radikal qüvvələr haqqında söylədiyi fikirlər bütünlükdə xalqın ümumi rəyinin ifadəsidir. Respublikada fəaliyyət göstərən bir neçə partiyanın YAP-la əməkdaşlığa təşəbbüs göstərməsi, iqtidar partiyasına birləşməsi cəmiyyətdə nüfuzu möhkəmlənən, milyonların partiyası adını qazanan bu siyasi təşkilata etimaddır.

Hakimiyyəti zorla zəbt edən, iqtidarlıq etdikləri qısa dövrdə xalqın nifrətini qazanan antimilli qüvvələrin yenidən kreslo həvəsində olması gülüncdür. Azərbaycana qarşı təxribatlar törədənlərin nökərinə çevrilən "Milli Şura" və Əli Kərimlinin başçılıq etdiyi AXCP-nin muzdluları yenə də köhnə ampluasındadır. Siyasəti ticarət piştaxtasında aparılan alver kimi anlayan bu xəyanətkarlara Azərbaycana vurduqları ziyanları xatırladan Prezident İlham Əliyevin " Belə insanlara xalq tərəfindən inam ola bilərdimi? Ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi. Köhnə partnomenklatura demək olar ki, tamamilə iflic vəziyyətə düşmüşdür, hakimiyyətə qanunsuz yollarla gəlmiş AXC-Müsavat cütlüyü ölkəni talayırdı, dağıdırdı, müharibə gedə-gedə Ermənistana benzin satırdı. Bütün vəzifələrə rüşvət müqabilində insanlar təyin edilirdi, təsadüfi insanlar, küçədən keçənlər. Baxın, indi mən bunu dəfələrlə demişəm, kim idarə edirdi Azərbaycanı, hansı əxlaq, hansı bilik sahibləri" sözləri xəyanətkarlara tarixin verdiyi qiymətdir.

Orta və yaşlı nəsil yaxın keçmişimizdə baş verən hadisələrdən bəhs edərkən bildirirlər ki, o dövrdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyü ancaq öz maraqlarını güdürdü. Prezident İlham Əliyevin vurğuladığı kimi təcrübəsiz, biliksiz, mədəniyyətsiz, səriştəsiz, qorxaq, fərari kimi mənfi epitetləri şəxsiyyətlərində formalaşdıran, təkcə iqtidara deyil, xalqa belə müxalifətdə olan, ölkəni idarəolunmaz hala salan AXC-Müsavat cütlüyünün səriştəsizliyi üzündən boşalan büdcə ümidinə qalan Azərbaycanda həyat demək olar ki, iflic vəziyyətinə düşmüşdü.

Vətənə xəyanət edənlərin məkrli niyyətindən söz açan dövlət başçımız İlham Əliyevin vurğuladığı kimi beynəlxalq aləmdə Azərbaycan haqqında mənfi imic formalaşdıran həmin cütlüyün iqtidarsızları ölkəmizi dünyanın siyasi poliqonunda müdafiəsiz vəziyyətinə salmışdılar. Qonşu və müsəlman dövlətlərini belə Azərbaycandan uzaqlaşdıran, incik salan AXC-Müsavat iqtidarının səhvlərini düzəltmək üçün illərlə çalışmaq lazım gəldi. Bütün ölkələrlə münasibətləri korlayan, əsassız, müstəqilliyimiz üçün təhlükəli iddialar irəli sürən, beynəlxalq qanunlardan xəbərsiz siyasi savadsızların səhvlərinin nəticəsində torpaqlarımız xarici dairələrin dəstəklədiyi Ermənistan tərəfindən işğal olundu. Ulu öndər Heydər Əliyevin xarici ölkələrə səfərləri zamanı xəritə qarşısında dayanıb, əlində tutduğu tədris çubuğu ilə Azərbaycan haqqında xaricilərə məlumat verməsini hamımız xatırlayırıq. Səbatsızlar üzündən beynəlxalq aləmdən təcrid olunan Azərbaycanı tanıtmaq üçün göstərilən səylərin nəticəsi bu gün ölkəmizin dünyada möhkəmlənən nüfuzu, iqtisadi və hərbi qüdrətidir.

"Ona görə biz bu yaranmış stereotipləri dağıtmalı idik. Nə üçün hesab olunmalıdır ki, hansısa ölkə Ermənistanla yaxın münasibətlərdədir, Azərbaycanla yox. Nə üçün? Dedim ki, baxaq görək nədir bunun əsasında, bir fundamental məsələ var, bir fundamental ixtilaf var? Yoxdur. Sadəcə olaraq, ambisiyalar, səriştəsizlik, ağılsızlıq və xaricdən idarə olunma. O siqnalları xaricdən alırdılar ki, bu ölkə ilə yaxınlaşma, bu ölkə ilə yaxınlaşmaq olmaz, bu ölkədən uzaq dur. Beləliklə, yaşadığımız bölgədə Xalq Cəbhəsi-Müsavat cütlüyü bizi təcrid etdi. Biz təcrid edilmiş vəziyyətdə idik, Ermənistan yox. Amma biz nəyə gətirib çıxartdıq? İndi Ermənistan təcrid edilmiş vəziyyətdədir, biz isə bütün qonşularla çox səmərəli dostluq, mehriban qonşuluq əsasında münasibətlər qurduq və bu da bir hazırlıq idi. " söyləyən Prezident İlham Əliyev hələ də ölkəmizin Vətən müharibəsində qazandığı qələbəsini sindirə bilməyən xarici dairələrə xidmət edən əlikərimlilərin, "milli şura"çıların dövlətimizə , xalqımıza qarşı xəyanətlərinin bağışlanılmaz xəyanət, satqınlıq adlandırır.

Şəxsi ambisiyalarının əsiri olan pula hərislərin, xarici havadarları tərəfindən idarə olunan Xalq Cəbhəsi-Müsavat cütlüyünün Azərbaycanın dövlətçiliyinə, xalqın mənəviyyatına vurduğu siyasi, iqtisadi zərbəni bu gün "islahatçı sədr" Əli Kərimlinin kurasiyasında olan "Milli Şura"nın Amerikada gizlənən sədri Cəmil Həsənli və onun milli satqınları davam etdirirlər. Ermənistanı diz çökdürən Milli Ordumuzun Qələbəsinə kölgə salmaq istəyən ermənilər və ermənipərəstlərlə eyni düşüncəyə malik antimillilər iyrənc əməlləri ilə xalqın nifrətini qazanıblar. Rus inqilabçı- demokrat Dmitri Pisarevin "Yalnız o adamla mübahisə etmək olar ki, mübahisə vaxtı həqiqətən də ağlı ilə işləyir" sözlərini xatırlamaqla çürük iddia sahiblərinin paslanmış düşüncələrinin əhəmiyyətsiz olduğunu dərk etmək mümkündür. Azərbaycan haqqında xarici dairələrin hazırladıqları təxribatları həyata keçirən antimilli şəbəkənin özləri kimi ağılları da icarəyə götürüldüyü üçün onlar haqqında danışmağa lüzum yoxdur.

***Xuraman İsmayılqızı***



**İLHAM**

# Həngamə sona çatır

***Yaşadığımız bu balaca hesab edilən dünyamızda hər gün bəlkə də milyonlarla qorxunc hadisələr, gülüş doğuran olaylar baş verir. Hər bir hadisənin də arxasında bəşəri varlıq hesab olunan insan amili dayanır. Yəni baş verən ölümləri, qarət və talanları bəşəriyyətin ən ağıllı varlığı hesab edilən insan törədir. Bəzən elə insanlar da olur ki, müxtəlif maraqlarının təmin olunması xətrinə dövlətinə və xalqına da düşmən kəsilir. Bunun adı təbii ki, satqınlıqdır, xəyanətdir. Sual edilə bilər ki, pul-para və ya hansısa maraqlar naminə Vətənini, xalqını satmaq olarmı? Nə yazıqlar ki, yaşadığımız cəmiyyətlər "tarakan"lardan xali deyil.***

Elə götürək, doğma Vətənimiz olan Azərbaycanımızı. Azmı olub, doğulub, boya-başa çatdığı Azərbaycanımıza qənim kəsilən, 3-5 manata görə, düşmən ölkə olan Ermənistanın kəşfiyyat orqanları ilə iş birliyinə gedən. Hətta Əlikram Hümbətov, Fəxrəddin Abbaszadə kimilər İrəvana gedərək, orada mətbut konfransı keçirib, çörəyini yeyib, suyunu içdiyi Azərbaycan əleyhinə hədyanlar səsləndirmişlər. Eyni zamanda, Vidadi İsgəndərli, Leyla Yunus, Arif Məmmədov, Orduxan Temurxan, Məhəmməd Mirzəli və digər tör-töküntülərin xaricdə oturub, Azərbaycana qarşı şər və böhtan kampaniyaları aparmaları onların xəyanət yolu tutmalarını təsdiq edən faktlardır. Məlum cinayətlərinə görə, həbs olunacağından qorxaraq, xaricə qaçıb gizlənən L.Yunus Xocalı soyqırımı ilə bağlı keçirilən tədbirdə çıxışı zamanı Azərbaycan xalqı əleyhinə hədyanlar danışıb, geninə-boluna ittihamlar səsləndirib. Bu müəmmalı nadir məxluq çıxışı zamanı Xocalı soyqırımından, erməni vəhşiliyindən, bir kəlmə də söz açmayıb. "Siz Xocalı vəhşiliyindən niyə söz açmadınız" sualına utanıb-çəkinmədən L.Yunus gülə-gülə, "bu, mənlik deyil" cavabını verib. Belələrinə azərbaycanlı demək nə dərəcədə mümkündür? Təbii ki, heç vəchlə bu kimi satqın və xəyanət yolu tutan məxluqlara azərbaycanlı demək olmaz. Düzdür, deyilə bilər ki, günah ilana ağu verəndədir. Yəni xaricdə oturub Azərbaycan əleyhinə qərəzli fəaliyyət yolu tutanlarda, eləcə də onları təlimatlandıran Əli Kərimli, Cəmil Həsənli və Arif Hacılı kimi cəmiyyətdə nifrət obyekti olan partiya sədrlərindədir. Ancaq insanın özü sürüşkən olmasa, ona təsir etmək, mövqeyindən və məsləkindən sapındırmaq çətindir. Daha doğrusu, mümkünsüzdür. Bu baxımdan, tam əminliklə demək olar ki, xarici maraqlı dairələrin əlaltısı rolunda çıxış edən müxalif məxluqların qanlarında zərərli mikroblar daha çox yer alır.

İstər Azərbaycandakı, istərsə də xaricdəki "söyüş müxalifəti"nə maliyyə vəsaitləri verən məkrli fondlar Azərbaycanın dövlət olaraq güclənməsini, inkişafını istəməyən və regionda söz sahibinə çevrilməsinə qısqanclıqla yanaşan qüvvələrdir. Həmin qüvvələr Azərbaycanda destruktiv qüvvələrə dəstək verməklə öz pozucu niyyətlərinə nail olmağa ümid bəsləyirlər. Ancaq zaman o zaman, əyyam o əyyam deyil ki, şər və böhtanlarla, qarayaxma kampaniyası ilə dövlətə nəyisə diqtə etdirəsən. Artıq dünyada tanınan və qəbul edilən güclü, qüdrətli Azərbaycan dövləti var. Bu dövlət 44 günlük Vətən müharibəsi ilə yağı düşmənin dizini yerə qoydu, 30 ildir tapdaq altında olan Qarabağımızı işğaldan azad etdi. Müzəffər ordumuz erməni qəsbkarlarını ciddi şəkildə cəzalandırmaqla hərb tarixinə rəşadətli imzasını atdı. Bu gün Azərbaycan bütün sahələrdə böyük inkişaf yolu qət edib. İnkişaf və tərəqqi yolunda inamla irəliləyən Azərbaycan bundan sonra daha da inkişaf edəcək və dünyanın aparıcı dövlətlərindən biri olmasının heç də təsadüfi olmadığını nümayiş etdirəcək. Bu baxımdan, istər xaricdəki "söyüş müxalifəti", istərsə də daxildəki müxalif tör-töküntülər aparılan uğurlu siyasətə kölgə sala bilməyəcəklər. Onlar şər və böhtanlar danışacaq, mənasız fikirlər sərsələməyəcək, anormal iddialar irəli sürəcək və nəhayət, nəticə əldə edə bilmədiklərini anlayıb əski mövqelərinə qayıdacaqlar. Yəni həngamə sona çatır. Zatən belə də olmalıdır. Çünki onlar meydana çıxanda boş qazanla çıxmışdılar və fəaliyyətləri dövründə, ancaq həmin o boş qazanları danqıldadıblar.

# Uşaq tərbiyəsində bu məqama ciddi diqət yetirilməlidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



### Yaşa və faydalılığına görə seçilməyən oyuncaqlar uşaqlarda hansı problemlər yarada bilər?

Böyük əksəriyyətimizin evində körpə var, körpə olduğu evdə də sözsüz ki, oyuncaqlar da var. Bir çoxumuz uşaqlarımıza oyuncaq alarkən hər nüansa diqqət yetiririk, bəzilərimiz isə "oyuncaq olsun" fikrilə gördüyümüzü alırıq. Ya da yeni çıxan, reklam olunan, dəbə minən istənilən oyuncağı alırıq. Bəs bunun təhlükəsindən nə dərəcədə xəbərdarıq?

### Psixoloq: "Zərərli oyuncaqlar uşaqlarda ciddi problemlər yaradır"

Adamın əhvalını pozan, əsəbləşdirən, səs-küylü əcaib musiqilər çox vaxt uşaq oyuncaqlarında quraşdırılır. Ökəmizdə satılan oyuncaqların demək olar ki, hamısı bizə yad ölkələrin məhsuludur. Təbii ki, oyuncaqlara da yad mədəniyyətə aid musiqilər və səslər qoyulur. Hətta ən zərərli musiqi növü olan rok mahnıları qoyulan oyuncaqlar da çox satılır. Körpə gözünü açandan yad nəğmələr, mahnılar, sözlər eşidir, o ruhda böyüyür.

Oyuncaqlara qoyulan belə musiqilər psixologiyanı darmadağın edir. Çünki altşüur ətrafdan qəbul olunan səsləri yaddaşa yazır və sonralar bu məlumatlar əsasında xarakter və xüsusiyyətlər formalaşır.

Təsəvvür edin ki, uşaqlar üçün avtomat, tapanca istehsal edən ölkələr hər biri öz dilində "əllər yuxarı", "atəş" sözünü diqtə edirlər. Dili yenicə açılmış, hər sözü beyninə yazan körpə isə bunun mənasını bilmədən sözün əsirinə çevrilir, yaş irəlilədikcə bu sözlərin "ölüb-öldürmək" olduğunu anlayır. Əslində isə, alt şüurda bu assossasiya artıq çoxdan baş verib və bu da uşağın psixologioyasının formalaşmasında öz təsirini göstərib.

Psixoloq Aida Qarayeva bildirir ki, bizim ölkədə körpə anadan olan kimi ona "şıq-şıq" dediyimiz oyuncaqlar alırlar: "Hərə əlinə bir şıqşıq alıb dayanır körpənin beşiyinin başında, başlayırlar cingildətməyə, şıqqıldatmağa. Təsəvvür edin ki, yetişkən bir insan dəmirkəsənlə dəmir kəsiləndə oradan çıxan səsdən necə narahat olursa, körpə də o şıqqıltıdan narahat olur. O yeni doğulub, bu günədək yaşadığı yer, ana bətni çox sakit və rahat bir yerdir, ora adaptasiya olmuş körpənin birdən birə səs-küylü bir mühitə düşməsi olduqca mənfi nəticələr verə bilər".

Mütəxəssisin sözlərinə görə, o cür oyuncaqları körpəyə yalnız bir yaşından sonra vermək olar: "Bir şərtlə ki, həmin oyuncaqlar keyfiyyətli materialdan olsun. Çünki keyfiyyətsiz, zərərli tullantılardan hazırlanan oyuncaqlar uşaqlarda dəri-zöhrəvi xəstəlikləri, hətta xərçəngə belə səbəb ola bilər".

### Uyğun olmayan oyuncaqlar uşağa necə təsir edir?

Kanadada aparılan bir elmi araşdırma zamanı məlum oldu ki, hərəkətli oyuncaqlar uşaqların inkişafında və hərəkətlərinin doğru istiqamətləndirilməsində olduqca böyük əhəmiyyətə malikdir. Amma bir şərtlə ki, bu cür oyuncaqlar uşağa zamanında verilsin. Belə ki, bir yaşından qabaq körpəyə hərəkət edən oyuncaqların verilməsi düzgün deyil.

Kanadalı mütəxəssislər bildirir ki, yaxşı olar ki, körpə iməkləsin və ya yerisin, daha sonra ona hərəkət edən oyuncaqlar verilsin. Körpələr üçün iməkləməyə və yeriməyə başlamaq azadlıqlarına qovuşmanın ilk addımıdır. Hərəkət qabiliyyətləri artdıqca, gördükləri hər hərəkətli obyekti tutmaq və araşdırmaq üçün həvəslidirlər. İməkləməyə başlayan uşaq hərəkət edən oyuncağın arxasınca imakləyə-imakləyə hərəkət etmiş olur və fizikin cəhətdən daha yaxşı inkişaf edir.

Əgər körpə hələ yerimir və ya iməkləmirsə ona hərəkət edən oyuncağı vermək düzgün deyil, çünki oyuncağın arxasınca gedə bilməyəndə körpə əsəbi hal alır. Ona görə də, pultlu maşın və ya digər oyuncaq almaqdansa, sadə, formasını dəyişdirmək mümkün olan oyuncaqlar məsləhətdir.

Bu gün oyuncaq istehsalı olduqca inkişaf edib, hər gün yeni bir oyuncaq dizayn edilərək bazara çıxarılır. Qız uşaqları daha çox gəlincik və ya miniatür ev əşyalarına üstünlük verir, oğlanlar isə daha çox konstrukturlar, silah, mexaniki, elektronik oyuncaqlarla maraqlanır. Gəlinciklərə gəldikdə, qız uşaqlarına valideynlər daha çox Barbi kuklaları alırlar. Bu bizim mədəniyyətə yad formada bir gəlincikdir. Təəssüf ki, ölkəmizdə oyuncaq fabriki yoxdur deyə məcburən xarici oyuncaqlar alınır, amma yenə də oyuncağın uşağın böyüdüyü, tərbiyə aldığı mühitə, mədəniyyətə uyğun olmasına fikir verilməlidir.

Sovet dövründə Bakıda Oyuncaq Fabriki fəaliyyət göstərirdi və orada milli mədəniyyətimizə aid oyuncaqlar, gəlinciklər və bu kimi məhsullar istehsal olunurdu. Yaxşı olardı ki, həmin fabrik bərpa olunsun və uşaqlarımız ilk yaşlardan öz milli mədəniyyətimizə məxsus oyuncaqlarla böyüsün.

### Hansı yaşda hansı oyuncaqlar vacibdir?

Mütəxəssislər uşaqlara yaşa görə oyuncaq alınmasını məsləhət görürlər. Pedaqoqlar oyuncaqların yaşa görə bölünməsini bu cür sıralayırlar:

0-6 ay - Zamanının böyük bir hissəsini yataraq keçirən yeni doğulmuş körpəniz üçün yuxu, inkişafı baxımından çox vacibdir. Məhsuldar bir yuxu üçün, körpənizin yuxusuna mane olan bütün faktorları ortadan qaldırmalı, ona rahat və etibarlı bir mühit yaratmalısınız. Bu ərəfədə ona zəngli, musiqili və şıqqıltılı oyuncaqlar verməyin. Onun üşün ən yaxşısı sadə formalı, səs-küyü olmayan zərif parçadan olan oyuncaqlardır.

6-12 ay - Bu dövrdə körpənin duyğu orqanları inkişaf edir. Buna görə də fərqli rənglərdə və fərqli parça və məhsullardan hazırlanmış oyuncaqlarla oynaması, toxunma duyğusu və anlayış qabiliyyətinin inkişafı baxımından olduqca faydalıdır. Bu dövdə ona iç-içə keçə bilən qablarla və ya fərqli boyda və şəkildəki qutularla oynamaq üçün şərait yaradın. Bu, körpənin bir çox bacarığını inkişaf etdirməsini təmin edir. Onları bir-birinə vuraraq, iç-içə və ya üst-üstə qoyaraq fərqli əyələncələr yarada bilər.

12-24 ay - Səsli oyuncaqlar, bu dövrdə uşağın olduqca marağına səbəb olur. Çalışmaq lazımdır ki, qulağa xoş gələn musiqilərlə zəngin oyuncaq alasınız. Bunun üşün daha əlverişlisi odur ki, heyvan səsləri çıxaran oyuncaqlara üstünlük verilsin. İt hürməsi, pişik miyovlaması, cücə cikkildəməsi, xoruz banlaması kimi səsləri bu vasitə ilə öyrənə bilər. Bu uşağınıza həm ətraf aləmi kəşf etməyə kömək edər, həm də yad musiqilərin kobud təsirindən qoruyar.

2-5 yaş - 2 yaşına qədər tək oyun oynamağı seçən uşaqlar üçün ilk yoldaşlıq əlaqələri bu dövrdə başlayır. Artıq özlərinə tərəf müqabili axtarmağa başlayan bu yaşda olan uşaqlar bu vasitə ilə paylaşmağı, dostluğu öyrənir. Mümkün qədər övladınızı həyatla uzlaşmayan, fantastik oyun qəhrəmanlarının oyuncaqlarından uzaq tutun. Körpə nə qədər realist ruhda böyüsə, bir o qədər əqli və fiziki cəhətdən sağlam olar. Bu yaşda uşaqlara daha çox konstruktiv oyuncaqlar almaq lazımdır. Uşaqlar bu dövrdə boyama kitablarını da çox sevirlər.

5-6 yaş - Bu yaşda domino, dama, şahmat kimi nizamlı oyunlar vacibdir. Digər stolüstü oyunlar- futbol, xokkey və sair ikitərəfli oyunları öyrətmək lazımdır. Konstruktor oyunları daha yaxşıdır. Kubik-rubik tipli əl qurğuları da xeyli faydalıdır. Bundan başqa, əl işləri edə biləcək dəstlər ala bilərsiniz ki, özü nə isə düzəltsin.

### Ekspert: "Düşündürən və inkişaf etdirən oyuncaqlar seçilməlidir"

Sağlam Cəmiyyət Hərəkatının eksperti, Nübar İsmayılovanın fikrincə, oyuncaqlar, bir tərəfdən körpə üçün əyləncəli anlar yaradar, digər tərəfdən də olduqca təsirli və tərbiyəvi vəzifəni boynuna götürür: "Uşaqların ruhi, əqli və fiziki inkişafı baxımından ən təbii və ən aktiv öyrənmə zamanı oyuncaqlarla təmas əsnasında yaranır. Körpələrin ilk oyuncaqları arasında mütləq zərif, sadə, keyfiyyətli materialdan, yumşaq oyuncaqlar olmalıdır. Mümkün qədər parlaq rəngli oyuncaqlardan uzaq durun".

Mütəxəssis bildirir ki, yaşına uyğun oyuncaq seçimi körpənin zəka inkişafını sürətləndirir: "Çünki, bu oyuncaqlar məhz uyğun yaş üçün nəzərdə tutulub. Oyuncaq seçimi edərkən həmişə keyfiyyəti əsas planda tutmalı, uçağın psixoloji inkişafı üçün faydalı olanı seçmək lazımdır. Əgər yaxşı oyuncağa pulunuz çatmırsa, onda heç olmasa pisini də almayın. Uşağınızın xarici multfilmlərdə görüb istədiyi oyuncaqları yox, onun sağlamlığına və inkişafına faydalı olacaq oyuncaqları almağa çalışın".

Ekspertin fikrincə, 3 və ya daha yuxarı yaşlı uşaqlar üçün oyuncaq alarkən daha çox stolüstü oyun növlərinə, ikitərəfli və çoxtərəfli kollektiv oyunlara, həmçinin, konstruktor dəstlərinə, beyinin inkişafına kömək edən kubik-rubik tipli məhsullara üstünlük vermək lazımdır. Bir sözlə uşaqları düşündürən, dünyagörüşünü artıran, kollektivçiliyə yönəldən, əqli, fiziki və psixoloji inkişafına kömək edən oyunlar alınmalıdır. Əlbəttə, buraya kiçik idman qurğularını və ləvazimatlarını, velosipedləri və s bu kimi məshulları da əlavə etmək lazımdır. Valideynlər ağıllı olduqda uşaq da ağıllı, sağlam və savadlı böyüyür, cəmiyyətə layiqli fərd kimi yetişir".

*Lalə Mehralı*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

13 mart

Səs

Son səhifə

# Honda nə vaxt gəlir? - “Neftçi” açıqladı



***“Neftçi” tanınmış Yapon futbolçu Keysuke Hondanın transfer işini həll edib. Bu barədə Qol.az-a klubun mətbuat xidmətinin rəhbəri Rüstəm Allahverdiyev məlumat verib. Onun sözlərinə görə, 34 yaşlı yarımmüdafiəçi bu gecə Bakıya gələ bilər: “Viza məsələsi var, cavab gözləyirik.***

Bu gecə də gələ bilər, sabah da, başqa gün də. Vizası alınan kimi biletini alacağıq, gələcək”. Klub rəsmisi Hondanın özü ilə şəxsi aşbazını da gətirəcəyi haqda yayılan xəbərə münasibət bildirib: “Kimlərin gələcəyi ilə bağlı tam məlumatım yoxdur. Bildiyimə görə, meneceri olan qardaşı və mətbuatla əlaqələrini görən şəxs gəlir. Tam olaraq kimlərin gələcəyini bilmirəm”. R.Allahverdiyev Honda ilə mövsümün sonuna qədər müqavilə imzalanacağını da bildirib.

Qeyd edək ki, Yaponiya millisinin sabiq üzvü hazırda Kamboca yığmasının baş məşqçisidir. O, karyerası ərzində SSKA (Moskva), “Milan” “Vitess”, “Botafaqo” kimi klublarda oynayıb.

# “İldə 70 milyon da versələr, “Barselona”da oynamaram”



“Real”ın kapıtanı Serxio Ramos “Barselona” ilə bağlı fikirlər səsləndirib. “As” nəşrinin yazdığına görə, təcrübəli futbolçu heç vaxt Kataloniya klubuna keçməyəcəyini deyib: “Mənim Laportaya (“Barselona”nın yeni prezidenti - red.) hörmətim var. Amma “Barselona” üçün oynamaram. Nə illik 50 milyon, nə də 70 milyon avro versələr. Həyatda pulun satın almayacağı şeylər də var. Siz eyni zamanda Xavi və Pikeni də “Real”da görə bilmərsiniz”.

Ramos “Barselona”nın ÇL-in 1/8 finalında PSJ-yə məğlubiyyətinə də toxunub: “Barselona”nın məğlubiyyətinə gülmərəm. Çünki eyni şey bir həftə sonra bizim də başımıza gələ bilər”. O bidirib ki, karyerası ərzində ən güclü rəqibi Xosep Qvardiolanın “Barselona”sı olub: “Pepin həmin o komandası tarixin ən güclü “Barselona”sıdır”.

# Dünya ŞOKDA: Bu il dünyada 150 mindən çox insan aclıqdan öləcək!

***Dünyada 150 mindən çox insan aclıqdan öl Birləşmiş Millətlər Təşkilatı 2021-ci ildə aclıqdan əziyyət çəkənlərin artacağını proqnozlaşdırır. Belə ki, iqlim dəyişikliyi və koronavirus infeksiyası vəziyyəti daha da ağırlaşdırdığı üçün dünyada 150 mindən çox insan aclıqdan ölmək riski altındadır.***



BMT-nin Baş katibi Antonio Quterreş bildirib ki, 2020-ci ilin sonunda dünyada 88 milyon insan aclıqdan əziyyət çəkirdisə, proqnozlar 2021-ci ildə bu rəqəmin artacağını göstərir. Onun sözlərinə görə, iqlim dəyişikliyi və koronavirus infeksiyası vəziyyəti daha da ağırlaşdırır. 30-dan çox ölkədə aclığın pik həddi müşahidə olunur: “Təcili addımlar atılmasa, milyonlarla insan həddindən artıq aclıq və ölüm həddində olacaq. Proqnozlar göstərir ki, aclıqdan əziyyət çəkən insanların sayı artmaqdadır. Bu vəziyyət Afrika buynuzu ölkələrində yayılır və Cənubi Sudan, Yəmən və Əfqanıstanda sürətlənir. 30 milyondan çox insanın 30-dan çox ölkədə aclıq həddinə düşməsinə yalnız bir addım qalıb”.

150 mindən çox insanın aclıqdan ölmək riski altında olduğunu deyən baş katib, Yəməndə 5 ildir davam edən münaqişə nəticəsində ümumilikdə 4 milyon insan öz evindən didərgin düşdüyünü də nitqinə əlavə edib. Quterreşin verdiyi məlumata görə, ümumilikdə müharibə şəraitində yaşayan Afrika və bəzi Asiya ölkələrində hazırki durum daha acınacaqlıdır.

# Taekvondoçumuz beynəlxalq turnirdə gümüş medal qazanıb



Taekvondo komandamız İstanbulda keçirilən “Turkish Open” beynəlxalq turnirində daha bir medala sahib olub. Belə ki, Olimpiya, dünya və Avropa çempionu Radik İsayev turnirdə komandamızın aktivinə gümüş medal yazdırıb. İdmançımız həlledici qarşılaşmada İspaniya təmsilçisi İvan Qarsia Martinesə uduzub. Qeyd edək ki, yarışın birinci günündə komandamızın üzvü Milad Beigi Hərçəqani bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

# Cibgirliklə məşğul olan keçmiş məhkumlar yaxalanıblar

Paytaxtda cibgirliklə məşğul olan keçmiş məhkumlar yaxalanıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müxtəlif vaxtlarda paytaxt ərazisində 8 nəfərin cibindən pul, mobil telefon və sənəd oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri, əvvəllər məhkum olunmuş Z.Zolotaryeva və Ş.Beşirov Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Faktla bağlı rayon polis idarəsində araşdırma aparılır.



**Baş redaktor:**
Bəhruz Quliyev

**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600